QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 081 (5553) 27 **aprel** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycan dünya birliyi üçün mühüm və etibarlı tərəfdaşdır

*Prezident İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına səfər edib*




Səh 2


Prezident İlham Əliyev: "Güclü Azərbaycan gücsüz Ermənistan ilə istənilən dildə danışa bilər"



3

Ramiz Mehdiyevə Rusiyanın "Şərəf" ordeni təqdim olunub



5

Beynəlxalq elmi konfrans türk-müsəlman xalqlarına qarşı soyqırımlarına dair yeni tarixi faktların üzə çıxarılmasına xidmət edir



5

Yeni Baş nazir: ziyalı, sədaqətli, məsuliyyətli və peşəkar



8

Arye Qut: Azərbaycan Cənubi Qafqaz regionunun güclü və sabit geosiyasi mərkəzidir



7

Daxili İşlər Nazirliyində geniş əməliyyat müşavirəsi keçirilib



7

11

Milli QHT Forumu 11 aprel prezident seçkilərinin müşahidə edilməsi ilə əlaqədar yekun hesabatını açıqlayıb



13

Qərbin sosial şəbəkə oyunbazlığı




16

Bu gün Bakıda Formula 1 Azərbaycan Qran-Prisi başlayır



# Azərbaycan dünya birliyi üçün mühüm və etibarlı tərəfdaşdır

*Prezident İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına səfər edib*




***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Meyin dəvəti ilə bu ölkəyə səfər edib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, aprelin 26-da Prezident İlham Əliyev Londonda BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşüb.***

Görüşdə "Şahdəniz" layihəsi üzrə görülən işlər, həmçinin bu ilin iyununda TANAP layihəsinin açılışı ilə bağlı fikir mübadiləsi aparıldı. "Şəfəq-Asiman" strukturu üzrə imzalanmış hasilatın pay bölgüsü sazişi əsasında görülən işlərin intensivləşdirilməsinin əhəmiyyəti qeyd edildi.

Söhbət zamanı Azərbaycan ilə BP şirkəti arasında uzun illərdir davam edən əməkdaşlığın hazırkı səviyyəsindən məmnunluq ifadə olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 26-da Londonda Böyük Britaniya parlamentinin İcmalar Palatasının üzvü, Azərbaycan ilə dostluq qrupunun sədri Bob Bləkmən,







Lordlar Palatasının üzvü, Azərbaycanın Leyborist dostları qrupunun sədri Lord Devid Evans və İcmalar Palatasının üzvü, Şimali İrlandiya üzrə dövlət nazirinin müavini Devid Morris ilə birgə görüşü olub.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə Britaniya parlamentinin üzvləri dövlətimizin başçısını prezident seçkilərində qazandığı qələbə münasibətilə təbrik etdilər. Lord Devid Evans və Devid Morris ölkəmizdə səsvermə prosesini müşahidə etdiklərini və seçkilərin yüksək səviyyədə təşkil olunduğunu dedilər.

Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı seçkilər zamanı səsvermənin azad, şəffaf və demokratik keçirilməsi üçün hər cür şəraitin yaradıldığını dedi. Görüşdə Azərbaycanda davamlı inkişafın təmin edildiyi qeyd olundu. Britaniya parlamentinin hər iki palatasında fəaliyyət göstərən Azərbaycanla dostluq qrupları ilə əməkdaşlıq məsələləri müzakirə olundu.

**Ardı Səh. 3**

# Azərbaycan dünya birliyi üçün mühüm və etibarlı tərəfdaşdır

*Prezident İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına səfər edib*





Əvvəli Səh. 2

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Avropa və Amerika məsələləri üzrə dövlət naziri Alan Dunkan ilə görüşüb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə Alan Dunkan dövlətimizin başçısını yenidən Prezident seçilməsi münasibətilə təbrik etdi və ona fəaliyyətində uğurlar arzuladı. Qeyd etdi ki, Prezident İlham Əliyevin yenidən Prezident seçilməsi Azərbaycanın sürətli inkişafının davamlı olmasını təmin edəcək.

Söhbət zamanı ikitərəfli və regional əməkdaşlıq, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olundu. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesi barədə fikir mübadiləsi aparıldı.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Londonda Böyük Britaniyanın ticarət və ixracın təşviqi üzrə dövlət naziri, hökumətlərarası komissiyanın həmsədri Baronessa Rona Feyrhed ilə görüşüb. AZƏRTAC-ın xüsusi müxbir xəbər verir ki, görüşdə Baronessa Rona Feyrhed Prezident İlham Əliyevi seçkilərdə qazandığı qələbə münasibətilə təbrik etdi. O, Bakıya səfərini məmnunluqla xatırladı. Söhbət zamanı ikitərəfli münasibətlərin inkişafı, xüsusilə investisiya, biznes əlaqələri, kənd təsərrüfatı sahələrində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

Aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Mey ilə görüşü olub.

x x x

Azərbaycan Prezidenti İlham Əliyevin Böyük Britaniyaya səfəri aprelin 26-da başa çatıb.

## Prezident İlham Əliyev: "Güclü Azərbaycan gücsüz Ermənistan ilə istənilən dildə danışa bilər"

*"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 57-ci kitabı çapdan çıxıb*

***Güclü Azərbaycan gücsüz Ermənistan ilə istənilən dildə danışa bilər. Biz, sadəcə olaraq, bölgədə, regionda sabitliyi qorumaq üçün hələ ki, danışıqlar yoluna üstünlük veririk. Çünki Azərbaycan bölgədə sabitləşdirici ölkədir. Azərbaycan bölgədə çox böyük nüfuza malik olan bir ölkədir. Azərbaycanın razılığı olmadan bölgədə heç bir təşəbbüs, heç bir layihə icra edilə bilməz. Ona görə sabitliyi qorumaq, məsələni sülh yolu ilə həll etmək üçün biz hələ ki, siyasi yollara üstünlük veririk.***

Ancaq sirr deyil ki, Azərbaycan gündən-günə güclənir, Ermənistan gündən-günə zəifləyir. Bizim iqtisadi gücümüz müqayisəedilməz dərəcədə artmışdır. Düşməni istənilən istiqamət üzrə bir neçə dəfə, bəzi istiqamətlər üzrə 10 dəfədən çox üstələyirik və bu fərq getdikcə böyüyəcəkdir. Çünki bizim açıqaydın gələcəyimiz, perspektivlərimiz, inkişaf yolumuz vardır.

AZƏRTAC xəbər verir ki, "İnkişaf - məqsədimizdir" çoxcildliyinin 57-ci kitabında yer alan bu fikirlər Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 2013-cü il iyunun 26-da Silahlı Qüvvələrin 95 illiyi münasibətilə Bakıda təntənəli hərbi paradda söylədiyi nitqindən götürülüb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 57-ci kitabındakı materiallar 2013-cü ilin mayından iyulunadək olan dövrü əhatə edir. Bu kitab Prezident İlham Əliyevin Avropa Şurası Parlament Assambleyası prezidentinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşünə dair informasiya ilə başlayır.




Nəşrdə dövlətimizin başçısının Belçika Krallığına işgüzar səfəri zamanı apardığı danışıqlara, keçirdiyi görüşlərə dair materiallar, mətbuata bəyanatı, Azərbaycan Prezidentinin ABŞ, İtaliya, Rusiya, Böyük Britaniya, Türkiyə, Ukrayna, Əfqanıstan, Almaniya, Mərakeş Krallığı və digər dövlətlərin, BMT, UNESCO, ISESCO, ATƏT, Avropa İttifaqı, Avropa Şurası və İƏT-in ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini qəbul etməsinə, Azərbaycan ilə ABŞ arasında tərəfdaşlıq əlaqələrinin yaranmasının 21-ci ildönümü ilə əlaqədar paytaxtımızda təşkil edilmiş "Gələcəyə baxış" Azərbaycan-ABŞ Forumunun rəsmi açılışı mərasimində, II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda, XX Beynəlxalq "Xəzər neft, qaz, neftayırma, neft kimyası" sərgi və konfransının açılışı mərasimində iştirakına dair materiallar toplanıb. Azərbaycan Prezidenti bütün görüş və danışıqlarda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həllində prinsipial mövqe nümayiş etdirib, diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini regionun inkişafına əngəl törədən Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək verməyə çağırıb.

Kitabda Nazirlər Kabinetinin 2013-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlətimizin başçısının nitqinin mətni, Azərbaycanda həyata keçirilən uğurlu daxili və xarici siyasətə, iqtisadi potensialın möhkəmlənməsinə, ordu quruculuğuna, regionların sosial-iqtisadi inkişafına və ölkə həyatının digər sahələrinə dair nitqləri, çıxışları, habelə IV Rusiya-Azərbaycan Regionlararası Forumunun iştirakçılarına, Azərbaycan Qadınlarının IV Qurultayına, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının IV Qurultayının iştirakçılarına, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin I Forumuna müraciətlərinin mətni də yer alıb.

Bu cilddə, həmçinin dövlətimizin başçısının Şirvan şəhərinə, Tovuz, Qazax, Ağstafa, Siyəzən, Xaçmaz və Şabran rayonlarına səfərlərinə, bölgələrdə ictimaiyyət nümayəndələri ilə görüşlərinə, infrastruktur obyektlərinin, mədəniməişət, sosial və sənaye müəssisələrinin açılışında iştirakına dair materiallarla tanış olmaq mümkündür.

Kitaba "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri də daxil edilib. "Azərnəşr" tərəfindən buraxılan 57-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

səs
www.sesqazeti.az
facebook Ses Media Holding
27 aprel 2018-ci il

# Türkiyə və Azərbaycan birliyinin böyük gələcəyi var



***Türk dünyasının iki ən aparıcı ölkələrindən hesab edilən Azərbaycan və Türkiyə arasında münasibətlər artıq bölgədə proseslərin inkişaf istiqamətini müəyyən edən əsas faktorlardan sayılır. Tərəflər arasında bu vaxta qədər mövcud olan münasibətlərin daha da möhkəmlənməsi Bakı və Ankaranın imkanlarını daha da artırıb. Bu baxımdan, Prezident İlham Əliyevin Türkiyəyə səfəri xüsusi önəm daşıyır və layiqincə qiymətləndirilir.***

Xüsusilə, qeyd etmək lazımdır ki, Cənab İlham Əliyev yenidən Prezident seçildikdən sonra ilk səfərini məhz qardaş ölkəyə- Türkiyəyə edib və Cənab Prezidentin özünün də söylədiyi kimi, həqiqətən də dünyada bir-birinə bu qədər yaxın olan iki ölkə yoxdur. Tarixi köklərə bağlı olan bu münasibətlərin fonunda Türkiyə və Azərbaycan bu gün həm ikili, həm də çoxtərəfli münasibətlərdə əməkdaşlıq edir və bu münasibətlərin bundan sonra daha da möhkəm olacağına zərrə qədər şübhə ola bilməz. Prezident İlham Əliyevin növbəti səfəri, məhz iki qardaş ölkənin əlaqələrini daha güclü səviyyəyə gətirib çıxaracağı deməkdir və nəzərə alsaq ki, Azərbaycan və Türkiyənin dinamik inkişafını gözü götürməyən qüvvələrin sayı indi xeyli artıb, hazırda hər iki ölkənin buna böyük ehtiyacı var.



## İki qardaş ölkə Avrasiyanın energetika və nəqliyyat xəritəsini tərtib edir

Bu gün Azərbaycan regionda həyata keçirilən qlobal iqtisadi layihələrdə Türkiyənin yaxından iştirakına daim xüsusi diqqət yetirir. Regionda reallaşdırılan bütün qlobal iqtisadi layihələrdə Türkiyənin iştirakı vacib hesab olunur. Avropa ilə Şərq ölkələri arasında nəqliyyat-kommunikasiya əlaqələrinin yaradılması sahəsində mühüm əhəmiyyət kəsb edən yeni marşrutlar buna əyani sübutdur. Bütün bu layihələrlə yanaşı, digər iqtisadi layihələrin reallaşdırılması istiqamətində görülən işlər, əlelxüsus Xəzərin enerji resurslarının dünya bazarlarına nəql olunmasında Azərbaycanla Türkiyə arasında davamlı əməkdaşlığın genişləndirilməsi misal ola bilər və bu, sözsüz ki, hər iki dövlətin regionda siyasi-iqtisadi və strateji maraqlarının təmin olunmasına xidmət edir. Ölkələrimiz arasında əlaqələrin dinamik şəkildə inkişafının göstəricisi olan və qlobal iqtisadi layihələr kimi dəyərləndirlən Bakı-Tibilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP kəmərləri və Bakı-Tbilisi-Qars dəmir yolu layihələri əlaqələrin geniş miqyaslı olduğunu təsdiq edir. Hazırda Azərbaycanın və Türkiyənin bir-birilə münasibətlərinin möhkəmləndirilərək daha da genişləndirilməsi hər iki dövlətin xarici siyasətinin çox mühüm tərkib hissəsi sayılır, daha dəqiq desək, prioritet məsələ hesab olunur. Ekspertlər də belə hesab edir ki, Prezident İlham Əliyevin Türkiyə səfərinə bu rakursdan da yanaşmaq yerinə düşər və bu səfərlə qarşılıqlı əlaqələrin daha da güclənməsi və yeni layihələrin reallaşdırılması istisnalıq təşkil etmir. Nəticə etibarı ilə, bütün bunlar ölkələrimizin həm regionda, həm də dünya miqyasında mövqelərinin daha da güclənməsi baxımından həqiqətən də çox vacibdir.

## Azərbaycan və Türkiyənin birgə həyata keçirdiyi layihələr sabitliyi və təhlükəsizliyi möhkəmləndirir

Azərbaycan və Türkiyənin regional əməkdaşlığı möhkəmləndirən, bölgədə sabitliyi təmin edən birgə layihələri tərəflərin iradəsi, təşəbbüsü və birliyi sayəsində reallaşdırılıb. Hazırda tərəflərin iştirakı ilə Avrasiyanın enerji və nəqliyyat xəritəsi yenidən tərtib edilir və bu layihələr hər iki tərəfin gücünü artırır, regional işbirliyini möhkəmləndirir və bölgədə sabitliyi təmin edir. Xüsusilə, vurğulamaq lazımdır ki, birgə həyata keçirilən təşəbbüslər sadəcə olaraq, iqtisadi məna daşımır, təhlükəsizliyi, sabitliyi möhkəmləndirəcəyini nəzərə alınmaqla bunların çox böyük siyasi anlamı var. Avrasiyanın energetika və nəqliyyat xərətəsinin tərtib edilməsi hər iki ölkənin gücünün artırılması deməkdir və bu, əslində, dünyanın bir sıra güc mərkəzlərinə ölkələrimizin birliyini xatırladan mesajdır.

Hal-hazırda qarşılıqlı sərmayə qoyuluşu artırılır. Bu vaxta qədər Azərbaycan Türkiyə iqtisadiyyatına təqribən 14 milyard dollar, Türkiyə isə Azərbaycan iqtisadiyyatına 12 milyard dollardan çox investisiya qoyuluşu həyata keçirib. Aydın məsələdir ki, yalnız qardaş ölkələrə bu qədər sərmayə qoyula bilər. Hətta, yaxın gələcəkdə TANAP-ın istifadəyə verilməsi, "Star" NEZ-in açılışı, əlbəttə ki, imkanları daha da artıracaq. Nəzərə almaq lazımdır ki, Egey bölgəsinin ən böyük, Türkiyənin isə 3-cü böyük limanı olan Petlim limanı Azərbaycanın investisiyaları hesabına inşa edilib. Umid edirik ki, yaxın gələcəkdə preferensial ticarət sazişi də imzalanacaq və beləliklə, ticarət dövriyyəsi daha da artacaq. Gələcəkdə hər iki ölkə üçün bir sıra vacib layihələrin həyata keçirilməsi nəzərdə tutulur ki, bu layihələrdən biri də ticarətdə milli valyutaya keçiddir. "Star" NEZ-in istifadəyə verilməsindən sonra isə şübhəsiz ki, Azərbaycan Türkiyədə bir nömrəli investor olacaq. Göründüyü kimi, iqtisadi və energetika münasibətlərini inkişaf etdirmək ölkələrimiz üçün strateji prioritet hesab olunur. Türkiyə və Azərbaycanın qardaş ölkə, bir millət - iki dövlət olduğu bütün dövrlərdə öz təsdiqini tapıb və iqtisadi əməkdaşlığın, qarşılıqlı strateji əlaqələrin, işgüzar və mehriban münasibətlərin bu qardaşlığı daha da möhkəmləndirəcəyi günün reallığıdır. Məhz buna görə də, cəsarətlə demək olar ki, Türkiyə və Azərbaycan birliyinin böyük gələcəyi var.

***İnam İMRANOĞLU***

# Ramiz Mehdiyevə Rusiyanın "Şərəf" ordeni təqdim olunub



**_Soçidə təhlükəsizlik məsələlərinə nəzarət edən yüksək vəzifəli nümayəndələrin 9-cu Beynəlxalq görüşü keçirilir. AZƏRTAC xəbər verir ki, görüşdə 117 ölkə, o cümlədən Azərbaycan da təmsil olunur. Bir sıra ölkələrin təhlükəsizlik şuraları katiblərinin, prezidentlərin və baş nazirlərin milli təhlükəsizlik üzrə köməkçilərinin, güc qurumlarının rəhbərlərinin iştirak etdikləri beynəlxalq görüşdə qlobal və regional təhlükəsizlik məsələləri müzakirə olunub. Diqqətə çatdırılıb ki, Soçi görüşü beynəlxalq təhlükəsizlik sahəsində çoxtərəfli əməkdaşlığın qurulması üçün əlverişli platformadır._**

Görüşü açan Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev Rusiya Prezidenti Vladimir Putinin təbrik məktubunu oxuyub, gündəliyə daxil edilən mövzular barədə məlumat verib.

Görüşdə ölkəmizi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Prezidentin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi Fuad Ələsgərov və Prezident Administrasiyasının sektor müdiri Otari Qvaladze təmsil edirlər.

Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev təhlükəsizlik məsələlərinə nəzarət edən yüksək vəzifəli nümayəndələrin 9-cu görüşündə "Beynəlxalq terror təşkilatlarının strategiyası və taktikasının təkamülü" mövzusunda çıxış edib. Çıxışda beynəlxalq terrorçu təşkilatların fəaliyyətində müşahidə olunan son tendensiyalar barədə məlumat verilib, habelə bu destruktiv fəaliyyətin qarşısının alınması üçün bütün dövlətlərin səylərinin birləşdirilməsinin və terrorçuluğa münasibətdə ikili standartlar siyasətindən imtina edilməsinin vacibliyi vurğulanıb.

Tədbir çərçivəsində Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevlə görüşüb. Nikolay Patruşev qeyd edib ki, Azərbaycanla Rusiya arasındakı əlaqələrin inkişafında xidmətlərinə görə Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin Rusiyanın "Şərəf" ordeni ilə təltif edilməsinə dair sərəncam imzalayıb. Nikolay Patruşev sərəncamı və ordeni Ramiz Mehdiyevə təqdim edib.

Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri Rusiya Prezidentinin ona göstərdiyi yüksək diqqətə görə təşəkkürünü bildirib. Vurğulayıb ki, Rusiya-Azərbaycan əlaqələri dinamik inkişaf edir, ölkələrimiz arasında daim dialoq aparılır və bu işdə dövlət başçılarının mühüm rolu var.

Ramiz Mehdiyevin Belarus Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zas ilə görüşündə regionda və dünyada vəziyyət və təhlükəsizlik məsələləri təhlil olunub, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

**_Fəridə Abdullayeva_**
**_AZƏRTAC-ın xüsusi müxbiri_**
**_Soçi_**

# AŞPA fəaliyyətində vaxtilə əsaslandığı qaydalara və prinsiplərə əməl etmir



**_AŞPA sessiyasından sessiyasına istər-istəməz sual yaranır: Biz hara gedirik? AŞPA bu cür davranışlarla, manipulyasiyalarla, bəzi məsələlərin şişirdilməsi, digərlərinə isə göz yumulması ilə hara gedir? AŞPA fəaliyyətində vaxtilə əsaslandığı qaydalar və prinsiplərə əməl etmir. Korrupsiya məsələsinə dair son hadisələr azadlıq, demokratiya və ədalətin artıq bu təşkilatı idarə etmədiyinin bariz nümunəsidir. AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan nümayəndə heyətinin üzvü Sevinc Fətəliyeva söyləyib._**

"AŞPA-dakı işimiz və fəaliyyətimiz şayiələrə deyil, hər zaman real faktlara əsaslanıb, hər hansı sənədin və ya hesabatın əvvəlində bəyan etdiyimizi onun sonunda heç zaman inkar etməmişik. Sözügedən hesabatda məntiq və ciddi yanaşmanın olmaması belə bir təsəvvür yaradır ki, mənim ölkəmə qara yaxmaq, onu bu təşkilatın gerçək gündəmindən kənarda qoymaq məqsədi güdülür. Bilmək istəyirəm, bu cəhdlər nəyə yönəlib. Azərbaycanı öz demokratiya yolundan döndərməyə? Azərbaycanı radikallaşdırmağa? Dəyərlərimizi dəyişdirməyə? Bu, heç zaman baş verməyəcək. Bütün cəhdləriniz əbəsdir. Azərbaycan heç zaman öz demokratiya yolundan dönməyəcək. Bütün bu hiylələr oyunlara, təzyiqlərə və ədalətsizliyə baxmayaraq, biz demokratiya dəyərlərinə və bu təşkilata sadiqliyimizi qoruyub saxlayacağıq",- deyə S.Fətəliyeva vurğulayıb.

O, müzakirə olunan hesabat ideyasına və təşəbbüsə açıq olduğumuzu bildirərək deyib ki, bu hesabatın hazırlanma tərzi qəbuledilməzdir. Burada çatışmayan real faktlardır. Əgər bir nəfər başqasını ittiham edirsə, mütləq faktlar və dəlillər göstərməlidir.

Deputat deyib: "Bu gün mən təkcə öz adımdan deyil, əziz həmkarlarımın, Azərbaycan xalqının adından danışıram. Bütün bu illər boyunca bizim səsimizi eşitməmisiniz. Biz torpaqlarımızın digər AŞPA üzvü olan Ermənistan tərəfindən işğal edildiyini deyirik, bizi eşitmirsiniz. Bu səs ədalətin və haqqın səsidir. Əgər həqiqət əvəzinə siz yalnız istədiyinizi eşitmək istəyirsinizsə, o zaman bu təşkilatda ədalət və şəffaflıq böyük sual altındadır və AŞPA-nın imicinə və etibarlılığına ciddi zərbə vurur".

# Beynəlxalq elmi konfrans türk-müsəlman xalqlarına qarşı soyqırımlarına dair yeni tarixi faktların üzə çıxarılmasına xidmət edir

*Qusarda "XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları" mövzusunda V Beynəlxalq elmi konfrans işə başlayıb*








**_Qusarda keçirilən "XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları" mövzusunda V Beynəlxalq elmi konfransda aparılan müzakirələr yeni tarixi faktların üzə çıxarılmasına xidmət edir. Bu kimi tədbirlər həm də ölkələr arasında elmi əlaqələrin möhkəmləndirilməsində böyük rol oynayır._**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu fikirlər aprelin 26-da Qusar şəhərində işə başlayan V Beynəlxalq elmi konfransın açılış mərasimində səsləndirilib.

Prezident İlham Əliyevin "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncamına uyğun olaraq təşkil edilən beynəlxalq konfrans Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutu, Türkiyə Respublikası Nazirlər Kabineti yanında Atatürk Mədəniyyət, Dil və Tarix İdarəsi Atatürk Araşdırma Mərkəzi, Türkiyənin Azərbaycandakı səfirliyi və Qusar Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilir.

**_Ardı Səh. 6_**

# Beynəlxalq elmi konfrans türk-müsəlman xalqlarına qarşı soyqırımlarına dair yeni tarixi faktların üzə çıxarılmasına xidmət edir

## *Qusarda "XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları" mövzusunda V Beynəlxalq elmi konfrans işə başlayıb*




Əvvəli Səh. 5

Konfransda Azərbaycanla yanaşı, Türkiyə, Rusiya Federasiyası və onun müxtəlif subyektlərindən, Polşa, Albaniya, Özbəkistan, Qazaxıstan, Pakistan, Hindistan və İraqdan görkəmli tarixçilər iştirak edirlər.

Beynəlxalq elmi konfransın iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Qusar şəhərində ucaldılmış abidəsini ziyarət edib, qarşısına gül dəstələri düzüblər. 1918-ci ildə "Qanlı dərə"də qələbə qazanmış Qusar və Quba qəhrəmanlarının şərəfinə ucaldılmış abidə də ziyarət olunub.

Həmçinin Qusar Mədəniyyət Mərkəzində türk-müsəlman xalqlarına qarşı soyqırımları haqqında tarixi faktları özündə əks etdirən kitablar və digər nəşrlərdən ibarət sərgi ilə tanışlıq olub.

Konfransın əvvəlində Azərbaycan və Türkiyənin dövlət himnləri səsləndirilib, soyqırımı qurbanlarının, eləcə də torpaqlarımızın azadlığı uğrunda şəhid olan həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub.

Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov çıxış edərək beynəlxalq konfransın əhəmiyyətindən danışıb. Bildirilib ki, 1918-ci ilin inzibati ərazi bölgüsünə görə Qusar ərazisi Bakı quberniyasının Quba qəzasına daxil idi. Həmin dövrdə Bakı Xalq Komissarları Sovetinin komissarı Stepan Şaumyanın tapşırığı ilə ermənilərdən ibarət 2 min nəfərlik hərbi dəstə Quba qəzasına göndərilmişdi. Erməni generalı Hamazaspın rəhbərlik etdiyi bu hərbi dəstə 1918-ci ilin yanvar-may aylarında Quba qəzasında 16 mindən çox insanı məhv etmişdi. Soyqırımına məruz qalan sakinlər arasında xeyli sayda ləzgi, tat, yəhudi və digər xalqların nümayəndələri də var idi. Qırğınlar zamanı daşnak-bolşevik birləşmələri Quba qəzasında 162 kəndi dağıtmışdı ki, bunlardan da 35-i xəritədən silinib. Daşnaklar təkcə Quba, Qusar və Xaçmaz ərazisində 26 məscidi yandırmışdılar. Onlar qadın, uşaq demədən, qarşılarına çıxan hər kəsi öldürür, evlərə soxularaq ailələri ucdantutma qırırdılar.

Düşmənlər silah-sursat sarıdan nə qədər güclü olsalar da, yerli əhali, əsrlərlə bir yerdə dostluq və qardaşlıq şəraitində yaşamış azərbaycanlılar, ləzgilər, tatlar və digərləri birləşərək onların qarşısını almağa çalışır və bu yolda son nəfəslərinədək müqavimət göstərərək şəhid olurdular. Məhz "Qanlı dərə" bu bölgədə yaşayan xalqların qanlarının bir-birinə qarışdığı müqəddəs bir məkandır. Buna görə də türk-müsəlman xalqlarına qarşı soyqırımlarından bəhs edən elmi konfransın Qusar şəhərində keçirilməsi tarixi əhəmiyyətə malikdir.




Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti, akademik İsa Həbibbəyli bildirib ki, dövlətimizin başçısının "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" 2018-ci il 18 yanvar tarixli Sərəncamına əsasən təşkil olunan beynəlxalq elmi konfrans tarix boyu xalqımıza qarşı törədilən qırğınlar haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması baxımından böyük əhəmiyyət kəsb edir. Ermənilərin əsassız iddialarının ifşa edilməsində, onların Anadoluda, Azərbaycanda törətdikləri soyqırımları ilə bağlı həqiqətlərin dünyaya çatdırılmasında istər Türkiyədə, istərsə də ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkəmizdə aparılan geniş ideoloji və təbliğati iş öz müsbət bəhrəsini verməkdədir. Dünya ictimaiyyəti artıq ermənilərin iç üzünü tanıyır. Hamı görür ki, ermənilərin soyqırımı iddiaları siyasi alətdən başqa bir şey deyildir.

İsa Həbibbəyli qeyd edib ki, 1918-ci ildə azərbaycanlıların kütləvi qırğını, sonralar deportasiyaya məruz qalması, doğma yurdlarından sürgün edilməsi və didərgin salınması isə XX əsrin ən faciəli hadisələrindəndir. Həmin ilin mart-aprel aylarında daşnak-bolşevik birləşmələrinin Azərbaycanın müxtəlif bölgələrində törətdikləri amansız qətliamların əsas məqsədi azərbaycanlıları milli etnos kimi yer üzündən silmək, onların tarixi torpaqlarına yiyələnmək olub. Ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra bu məsələyə prinsipial yanaşma nümayiş etdirilib, erməni millətçilərinin xalqımıza qarşı illərlə reallaşdırdıqları soyqırımı və deportasiya siyasətinin mahiyyəti bütünlüklə açıqlanıb və ifşa olunub. Bu gün isə Prezident İlham Əliyevin rəhbərliyi ilə erməni təcavüzünün nəticələrinin aradan qaldırılması, respublikamızın ərazi bütövlüyünün və suverenliyinin təmin olunması, aparıcı dünya dövlətləri və nüfuzlu beynəlxalq dairələr tərəfindən ölkəmizin ədalətli mövqeyinin etiraf olunması və müdafiəsi istiqamətində ardıcıl və məqsədyönlü iş aparılır. Artıq Qafqazda ermənilərin həyata keçirdiyi soyqırımlarını araşdıran tarixçilər arasında xeyli sayda ədalətli, obyektiv beynəlxalq tədqiqatçılar da var. Sevindirici haldır ki, ermənilərin törətdiyi qırğınlar haqqında bir sıra xarici dillərdə obyektiv məqalələr, kitablar çap olunur. AMEA-da da soyqırımı faktlarının araşdırılması ilə bağlı çox mühüm işlər görülür.

AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudov çıxış edərək bildirib ki, 1914-1918-ci illərdə böyük dövlətlərin fəal köməyi ilə terror-çu-ekstremist erməni təşkilatlarının Azərbaycanın və Şərqi Anadolunun türk-müsəlman əhalisinə qarşı həyata keçirdiyi soyqırımları dünya tarixinin ən dəhşətli səhifələridir. Məkrli ermənilər "böyük Ermənistan" yaratmaq xülyası ilə zaman-zaman işğalçılıq, qəsbkarlıq siyasəti yeridiblər. Əsrlər boyu, xüsusilə 1918-ci ildə ermənilər Bakıda, Qubada, Şamaxıda, Lənkəranda, Zəngəzurda, Qarabağda, Naxçıvanda, İrəvan ellərində və digər şəhər və rayonlarımızda xalqımıza qarşı soyqırımı həyata keçirib, minlərlə insanı - qocanı, qadını, uşağı, gənci qanlarına qəltan ediblər. Həmin dövrdə Şamaxı şəhərinin müsəlmanlar yaşayan hissəsində çəkilmiş fotoşəkillərdə bu vəhşiliyin izlərini aydın görmək olar.

Yaqub Mahmudov vurğulayıb ki, bu kimi beynəlxalq tədbirlərin keçirilməsi dünya ictimaiyyətinin diqqətini Azərbaycanda və Şərqi Anadoluda türk-müsəlman əhalisinə qarşı törədilən soyqırımlarına yönəltmək baxımından böyük əhəmiyyətə malikdir. Ermənilər heç bir fakt olmadan bütün dünyaya soyqırımına məruz qalmaları barədə yalan məlumatlar yayırlar. Amma üzə çıxan tarixi faktlar bunun əksini sübut etməkdədir. Biz elm adamlarının əsas vəzifəsi bu faktları araşdırıb beynəlxalq aləmə çatdırmaqdır.

Türkiyənin Azərbaycandakı səfirinin müavini Volkan Öskiper iki qardaş ölkənin ortaq acılarının xalqlarımızı daha sıx birləşdirdiyini deyib. "Dünya ədalətsizdir deyib, əllərimizi yanımıza salmağımız düzgün olmaz. Bu ədalətsizliyə qarşı birlikdə mübarizə aparmalıyıq. 100 il öncə də eyni haqsızlıq vardı. Ermənilər bizə sözlə ifadə edilməsi mümkün olmayan şiddətli dəhşətlər yaşatdılar. Bu çətinliklər xalqlarımızı daha da birləşdirdi. Qafqaz İslam Ordusu azərbaycanlı qardaşlarımızın köməyinə gəldi. Bizim ehtiyacımız olanda Azərbaycan əl uzatdı. Ortada yalanlar və həqiqətlər var. Nəyin yalan, nəyin doğru olduğunu tarixçilər araşdırıb üzə çıxarmalıdır. Əks halda maraqlı tərəflər tarixi siyasiləşdirərək dünya ictimaiyyətinə özlərinə sərf edən formada yalan məlumatlar verməkdə davam edəcəklər. Buna görə də keçirdiyimiz konfranslar davamlı olmalı, Türkiyədə və digər ölkələrdə də təşkil edilməlidir. Bugünkü konfransda çox sayda ölkələri təmsil edən tarixçilərin, alimlərin iştirak etməsi sevindirici haldır. İnanıram ki, tarixi faktların beynəlxalq ictimaiyyətə çatdırılmasında bu tədbirin çox böyük faydası olacaq", - deyə Volkan Öskiper bildirib.

Beynəlxalq konfransın açılış mərasimində Atatürk Araşdırma Mərkəzinin sədr müavini Nihat Fəthi Böyükbaş, Moskva Tarix, İqtisadiyyat və Hüquq İnstitutunun prezidenti, professor İqor Turitsın, Beynəlxalq Qazax-Türk Universitetinin kafedra müdiri, professor Elmira Zulpıxarova, Özbəkistan Elmlər Akademiyasının Tarix İnstitutunun professoru Kaxraman Racabov, siyasi elmlər doktoru, Pakistanda nəşr olunan "Müdafiə" jurnalının əməkdaşı Mahmud ul-Həsən xan, Kumık elm və mədəniyyət cəmiyyətinin sədri, "Yoldaş" qəzetinin baş redaktoru Kamil Əliyev və Hindistan alimi, Aligarx İslam Universitetinin professoru Arşi Xan çıxış edərək, müzakirə olunan mövzular ətrafında fikirlərini səsləndiriblər.

İki gün davam edəcək beynəlxalq konfrans 3 bölmə üzrə keçirilir. Birinci bölmədə "1905-1906-cı illərdə Azərbaycan xalqına qarşı kütləvi qırğınlar", "1917-1920-ci illərdə Azərbaycan xalqına qarşı soyqırımları", "1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından - Ermənistan SSR-in ərazisindən deportasiyası", "1988-1991-ci illərdə azərbaycanlıların öz tarixi torpaqlarından - Ermənistan Respublikasının ərazisindən deportasiyasının başa çatdırılması", "1991-1994-cü illərdə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı, azərbaycanlılara qarşı soyqırımları və etnik təmizləmələr" istiqamətlərində məruzələr dinləniləcək.

Növbəti iki bölmədə isə məruzələr "1914-1920-ci illərdə Şərqi Anadolu, Urmiya, Salmas, Xoy bölgələrində türk-müsəlman əhaliyə qarşı soyqırımları", "XX əsrdə Qafqaz, Volqaboyu və Mərkəzi Asiya xalqlarına qarşı soyqırımları və deportasiyalar" mövzularına həsr olunacaq. Beynəlxalq elmi konfransa aprelin 27-də yekun vurulacaq.

# Arye Qut: Azərbaycan Cənubi Qafqaz regionunun güclü və sabit geosiyasi mərkəzidir



***Əminəm ki, Azərbaycanda keçirilmiş prezident seçkiləri yeni islahat və nailiyyətlərin başlanğıcı və hərəkətverici qüvvəsi olacaq. Hesab edirəm ki, seçkilərdə Azərbaycan xalqı öz iradəsini nümayiş etdirdi, Azərbaycanda seçkilər açıq və şəffaf keçirildi. AZƏRTAC xəbər verir ki, bu fikirləri beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert, İsrailin "Cəmiyyət üçün beynəlxalq layihələr" qeyri-hökumət təşkilatının rəhbəri Arye Qut İsrailin 9-cu televiziya kanalının "Den" informasiya-analitik proqramında populyar israilli aparıcı Vladimir Rav Tsionla söhbətində deyib. http://9tv.co.il/video/2018/04/24/72572.html***

İsrailli ekspert qeyd edib ki, bu gün güclü və müstəqil Azərbaycan çoxvektorlu xarici siyasəti uğurla həyata keçirir. "Uğurlu geosiyasi və geoiqtisadi təşəbbüsləri nəticəsində Azərbaycan regionun güclü geosiyasi mərkəzinə və liderinə çevrilib. Onun iştirakı və razılığı olmadan dünyanın strateji regionu olan Cənubi Qafqazda heç bir siyasi, iqtisadi və nəqliyyat layihələri reallaşdırıla bilməz. Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü qüvvə və lokomotivdir. Yaddan çıxarmayaq ki, Azərbaycan respublikası bu gün çox mürəkkəb geosiyasi əhatədədir və çoxvektorlu xarici siyasət yürüdür.

Bugünkü reallıq belədir ki, Avrasiyada və bütün müsəlman dünyasında Azərbaycan qədər İsraillə sıx əlaqəsi olan ölkə yoxdur. İki dövlət arasında diplomatik münasibətlərin 26 illik tarixi ərzində yəhudi dövləti və əhalisinin əksəriyyəti müsəlmanlardan ibarət dövlət arasında strateji münasibətlərin zəruriliyi və yaşamaq qabiliyyəti sübut edilib. Bizim dost dövlətlərimiz həqiqətən də əsl səmimi və etibarlı strateji tərəfdaş kimi qarşılıqlı əlaqədədir. Faktiki olaraq azərbaycanlılar və yəhudilər nəinki yanaşı yaşaya bilər, həm də əsl dost ola bilər, öz münasibətlərini inkişaf etdirə və möhkəmləndirə bilərlər", - deyə Arye Qut vurğulayır.

Arye Qutun fikrincə, mürəkkəb geosiyasi labirintdə Azərbaycanın özünəməxsus yeri var. O deyib: "İsrail və Azərbaycan arasında ən yüksək səviyyədə ən etimada əsaslanan siyasi dialoq mövcuddur. Ciddi iqtisadi zəmin var - ticarət dövriyyəsi təxminən 5,7 milyard dollardır. Lakin İsrail-Azərbaycan münasibətlərində ən başlıcası isə çox vacib olan insan amilidir, mən deyərdim ki, bu amil ikitərəfli münasibətlərin əsas sütunlarından biridir.

Biz İsraildən olan müşahidəçilərlə birlikdə Azərbaycanda yəhudilərin yaşadıqları Qırmızı Qəsəbədə olduq. Müşahidəçilərin sırasında Uzi Dayan Azərbaycanda yəhudilərə dünyanın heç bir yerində olmayan qayğıkeş və səmimi münasibətə heyran qaldığını bildirdi. Qırmızı Qəsəbə bütün dünyada İsraildən sonra dağ yəhudilərinin yığcam şəkildə yaşadığı yeganə unikal məkandır və Azərbaycan bundan qürur duyur. Burada yəhudilər və azərbaycanlılar əsrlərboyu doğma qardaş kimi yaşayır, onları ortaq tarix və tale birləşdirir. Azərbaycan sivilizasiyalararası və konfessiyalararası dialoqun əsl nümunəsi olub və bu gün də belədir. Azərbaycan həqiqətən sabitlik, multikulturalizm və tolerantlıq adasıdır".

Ekspert qeyd edir ki, Prezident İlham Əliyevin milli maraqlara əsaslanan siyasəti Azərbaycanın xarici siyasətinin təməl daşıdır. Rəsmi Bakı sübut edib ki, heç kəs Azərbaycanla ultimatum dilində danışa bilməz. Əcnəbi tərəfdaşlarla əməkdaşlıq və tərəfdaşlıq müstəsna olaraq qarşılıqlı maraqlara əsaslanır. Ermənistan-Azərbaycan münaqişəsinə və Serj Sarkisyanın istefası məsələsinə toxunan Arye Qut qeyd edib ki, Ermənistan 25 ildən çoxdur Azərbaycan ərazisinin 20 faizini işğal altında saxlayır və bunun nəticəsində ölkədə 1 milyon qaçqın yaranıb. O deyib: "Rəsmi Bakı çoxdan bildirib ki, indiki status-kvo ilə razılaşmayacaq. Bundan başqa, beynəlxalq hüquq normalarına müvafiq olaraq, Bakı yalnız özünümüdafiə hüququna deyil, həm də Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərini azad etmək hüququna malikdir. Serj Sarkisyanın istefasına gəldikdə, bu insan tarixdə çox dəhşətli qanlı izlər qoyub. Xatırladım ki, Sarkisyan Azərbaycanın Xocalı şəhərindəki soyqırımı aktının təkcə ideoloqu deyil, həm də təşkilatçısı olub. Orada bir gecədə 613 azərbaycanlı dinc sakin, o cümlədən uşaq, qoca və qadınlar qətlə yetirilib. Azərbaycan xalqı bu cinayəti Sarkisyana heç vaxt bağışlamayacaq.

Bəs Sarkisyan öz xalqına nə qoydu? Onun on illik hakimiyyəti dövründə Cənubi Qafqaz regionunda özünü təcrid etmiş Ermənistan əsassız ərazi iddialarına, xüsusən də Azərbaycan torpaqlarını işğal etməsinə və davam edən hərbi təcavüzünə görə geosiyasi, geoiqtisadi, nəqliyyat və logistika, Xəzər dənizinin neft-qaz ehtiyatları ilə bağlı layihələrdən tam kənarda qalıb. Ermənistanın Cənubi Qafqazda ən asılı ölkə olması danılmaz faktdır. Ermənistan bu gün Rusiyanın xarici siyasi və iqtisadi ambisiyalarına tamamilə bağlıdır və ondan asılıdır".

Arye Qutun sözlərinə görə, Ermənistanın iqtisadiyyatı acınacaqlı vəziyyətdədir, bu da onun tədricən Rusiyanın peykinə çevrilməsi və çevriləcəyi ilə nəticələnir. "Əgər 10 il əvvəl Ermənistanın 3 milyon əhalisi var idisə, hazırda orada təxminən 1,5 milyon nəfər qalıb. İnsanlar Ermənistanı tərk edirlər, çünki oranın gələcəyini görmürlər. Kütləvi köç əhval-ruhiyyəsinin səbəbi Ermənistanın iqtisadi durumudur. Ermənistan əhalisi ölkədə reallaşdırılan iqtisadi siyasəti mənfi qiymətləndirir, çıxış yolunu buranı tərk etməkdə görür.

Hakimiyyət orqanlarının rəvac verdiyi cəzasızlıq mühiti o vəziyyətə gətirib çıxarıb ki, ölkənin taleyi dayaz, bəsit təfəkkürlü insanların və diletantların ixtiyarına buraxılıb. Başqa sözlə, onlar Serj Sarkisyanın "döyüş şücaətinə" görə mükafatlandırdığı şəxslərdir. Sarkisyan ölkəyə 10 il rəhbərlik etsə də, ilk iş fəaliyyətinə başladığı vaxtlardakı kimi, elə çilingər olaraq qalıb. Belə bir vəziyyətdə xalq ayağa qalxdı və istefa tələb etdi, Sarkisyan da getməyə məcbur oldu. Azərbaycanda ümid edirlər ki, Ermənistanda hakimiyyətə sağlam düşüncəli, ağır vəziyyətdə olan xalqını və ölkəsini düşünən adam gələcək", - Arye Qut İsrailin 9-cu televiziya kanalının "Den" informasiya-analitik proqramında fikrini belə yekunlaşdırıb.

# Daxili İşlər Nazirliyində geniş əməliyyat müşavirəsi keçirilib



***Aprelin 26-da Daxili İşlər Nazirliyində (DİN) Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimindəki nitqindən irəli gələn və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş naziryanı geniş əməliyyat müşavirəsi keçirilib.***



DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirliyin baş idarə, idarə və şöbə, həmçinin paytaxtın, Sumqayıt şəhərinin və Abşeron rayonunun polis orqanlarının, təhsil müəssisələrinin rəislərinin, nizami hissə komandirlərinin iştirak etdikləri tədbiri açan daxili işlər naziri, general-polkovnik Ramil Usubov cari il aprelin 11-də keçirilmiş seçkilərdə seçicilərin 86,02 faizinin səsini qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə dövlətimizin başçısı İlham Əliyevi bütün şəxsi heyət adından təbrik edib, ölkəmizin iqtisadi, siyasi və hərbi qüdrətinin yüksəldilməsi, hərtərəfli inkişafı, xalqımızın maddi rifahının daha da yaxşılaşdırılması istiqamətində ali dövləti fəaliyyətində ona böyük uğurlar arzulayıb.

Nazir Ramil Usubov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin andiçmə mərasimindəki nitqində ölkədə asayişin və təhlükəsizliyin təmin edilməsi sahəsində görülən işləri və əldə edilmiş nəticələri yüksək qiymətləndirdiyini vurğulayıb, qazanılan uğurlarla bərabər, əməliyyat-xidməti fəaliyyətdə bəzi çatışmazlıqların mövcudluğunu xatırladaraq onların həlli yollarını göstərib, bu istiqamətdə tapşırıq və tövsiyələrini verib.

Qarşıya qoyulan mühüm vəzifələrdən söz açan nazir bu sırada ölkədə vətəndaş məmnunluğunun təmin edilməsinin mühüm yer tutduğunu vurğulayıb. General-polkovnik R.Usubov bu tapşırığın icrası ilə bağlı polisin qanunla müəyyən edilmiş funksiyalarının hər bir struktur qurumda operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında həyata keçirilməsini, əməkdaşların etik davranış qaydalarına əməl etmələrini, bu işə nəzarətin gücləndirilməsini, cəmiyyətdə polisin nüfuzunun yüksəldilməsi üzrə işlərin sistemli şəkildə davam etdirilməsini tələb edib.

Qeyd edilib ki, müasir texnologiyaların tətbiqi xidməti fəaliyyətdə başlıca vəzifələrdən biri kimi ardıcıllıqla həyata keçirilməli, vətəndaşların müraciətlərinə, şikayətlərinə ayrı-ayrı hallarda bəzi əməkdaşların biganə yanaşması, bu zaman təsadüf olunan korrupsiya hüquqpozmalarına yol verilməsi tam aradan qaldırılmalı, vətəndaşların qəbulu işinə xüsusi həssaslıqla yanaşılmalı, əvvəlcədən müəyyən olunmuş qrafikə ciddi riayət edilməlidir. Vətəndaşların haqlı narazılığına zəmin yaradan problemlər yerindəcə həllini tapmalı, qanunla qorunan hüquq və mənafeləri təmin edilməli, bu işin yerlərdə həyata keçirilməsinə ciddi nəzarət edilməlidir. Vətəndaş məmnunluğunun təmin edilməsi bütün struktur qurumlarda başlıca vəzifələrdən biri kimi rəhbər heyətin nəzarəti altında məqsədyönlü şəkildə davam etdirilməlidir.

Tədbirdə qarşıda duran vəzifələrin həllində həm də kadrlarla işin nümunəvi təşkilinin böyük əhəmiyyət kəsb etdiyi, son 15 ildə əməkdaşların peşə, fiziki və mənəvi-psixoloji hazırlıqları sahəsində lazımi tədbirlərin ardıcıl olaraq həyata keçirildiyi və bu sahədə müsbət nəticələrin əldə edildiyi iştirakçıların nəzərinə çatdırılıb. Ərazi orqanlarında və nizami polis hissələrində mənəvi-psixoloji mühitin daha da yaxşılaşdırılması, şəxsi heyətin Heydər Əliyev ideallarına, azərbaycançılıq məfkurəsinə, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması istiqamətində tədbirlərin bundan sonra da davam etdiriləcəyi vurğulanıb.

Müzakirələrdə çıxış edən baş idarə, idarə və ərazi polis orqanlarının rəisləri görülmüş işlərdən, əldə olunmuş nəticələrdən, eyni zamanda, əməliyyat-xidməti fəaliyyətdə buraxılan bir sıra nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün həyata keçiriləcək tədbirlərdən danışıblar.

Sonda nazir, general-polkovnik R.Usubov daxili işlər orqanlarının və Daxili Qoşunların şəxsi heyəti adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevi əmin edib ki, ölkədə sabitlik, təhlükəsizlik, fundamental insan hüquq və azadlıqları bundan sonra da etibarlı qorunacaq, qanunla müəyyən edilmiş vəzifələr və qarşıya qoyulmuş bütün tapşırıqlar tam həcmdə yerinə yetiriləcək.

# Yeni Baş nazir: ziyalı, sədaqətli, məsuliyyətli və peşəkar

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təqdimatı ilə Milli Məclis Baş nazir vəzifəsinə Novruz Məmmədovun təyin edilməsinə razılıq verdikdən sonra, bu hadisə ilə bağlı müsbət fikirlər səsləndirilir, təyinatın uğurlu olduğunu sübut edən kifayət qədər faktlar göstərilir. Doğrudan da, Novruz Məmmədovun həyat və fəaliyyətinə nəzər salanda, öz zəhməti və biliyi ilə keçdiyi yolun məzmunu Baş nazir vəzifəsinə tam layiqli kadr olduğu qənaətini yaradır. Özünün də dəfələrlə etiraf etdiyi kimi, ulu öndər Heydər Əliyevin yanında işləməsi bütün həyat kredosunu müəyyənləşdirib və onun üçün böyük məktəb olub. Novruz Məmmədov bütün fəaliyyəti boyu məsuliyyəti, ünsiyyət mədəniyyəti, biliyi, nizam-intizamı, yüksək təşkilatçılıq qabiliyyəti, təşəbbüskarlığı və qətiyyətli vətəndaş mövqeyi ilə fərqlənib. Azərbaycan Prezidenti İlham Əliyev ona yüksək və məsuliyyətli vəzifə etibar etməklə kadr təyinatında çoxsaylı faktorları dəqiqliklə nəzərə aldığını bir daha nümayiş etdirib. Bütün bunlar Novruz Məmmədovun yeni yüksək vəzifədə uğurla fəaliyyət göstərəcəyi barədə fikir yürütməyə əsas verir.***




## Heydər Əliyev məktəbi: Baş nazirin şəxsi və peşə keyfiyyətləri haqqında

Prezident İlham Əliyev dövlət idarəçiliyi sistemini daim təkmilləşdirir. Dövlətimizin başçısı bu istiqamətdə düşünülmüş, ölçülüb-biçilmiş addımlar atmaqdadır və bu zaman, ilk növbədə, xalqın və dövlətin maraqlarını, milli mənafeləri nəzərə alır. İlham Əliyevin növbəti müddətə Prezident seçilməsindən sonra yeni hökuməti məhz həmin prinsiplər üzrə formalaşdıracağı heç kəsdə şübhə doğurmurdu.

Prezident İlham Əliyev vitse-prezidentlik institutunu yaradanda ekspertlər bunu vaxtında atılmış çox düzgün addım kimi dəyərləndirdilər. Nazirlər Kabinetinin yeni tərkibinin layiqli kadrlardan formalaşdırılması haqqında da eyni fikri söyləmək olar. Baş nazir vəzifəsinə Novruz Məmmədovun təyin olunması bu baxımdan xüsusi vurğulanmalıdır.

Məsələ ondan ibarətdir ki, Novruz Məmmədov uzun illərdir yüksək dövlət vəzifələrində səmərəli fəaliyyəti ilə özünü doğrultmuş peşəkar kadrdır. Ulu öndər Heydər Əliyev Novruz Məmmədovun fəaliyyətinə yüksək qiymət verərək ona tədricən daha məsuliyyətli və dövlətçilik baxımından əhəmiyyətli vəzifələr tapşırırdı. Ekspertlərin vurğuladığı əsas məqamlardan biri odur ki, Novruz Məmmədov həm də təhsil və elm sahəsində uğur qazanmış ziyalılardandır. Azərbaycanın yeni Baş naziri professordur, uzun müddət ali təhsil müəssisəsində məsul vəzifə tutub. Bir neçə xarici dil bilir - fransız, ingilis, rus və türk dillərində mükəmməl biliyə malikdir. Vaxtilə ulu öndər Heydər Əliyevin tərcüməçisi işləməsi, təbii ki, Novruz Məmmədov üçün böyük məktəb olub.

Bundan başqa, Novruz Məmmədov uzun müddət Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici əlaqələr şöbəsinə rəhbərlik edib, Prezidentin xarici siyasət məsələləri üzrə köməkçisi işləyib. Hazırda beynəlxalq münasibətlər üzrə yüksək səviyyəli mütəxəssis kimi tanınan Novruz Məmmədov müasir geosiyasətin nəzəri və praktiki məsələlərinə dair bir neçə kitabın müəllifidir. Bu kitablardan tələbələr və gənc mütəxəssislərlə yanaşı, diplomatlar və tədqiqatçılar da faydalana bilirlər.

Yeni Baş nazirin bioqrafiyasında diqqət çəkən daha bir məqam onun sadə və zəhmətkeş ailədə böyüyüb boya-başa çatmasıdır. Novruz Məmmədovla birlikdə çalışan insanların hamısı onu ünsiyyətcil, işini dərindən bilən, səmimiliyi, mədəni davranışı, zəhmətkeşliyi, alicənablığı və müasirliyi ilə fərqlənən insan kimi səciyyələndirirlər. Göründüyü kimi, onun kadr kimi peşəkarlığı, yüksək insani keyfiyyətləri bir-birini tamamlayır və harmoniya yaradır. O, daim axtarışdadır və özünü təkmilləşdirməyə çalışır.

Bütün bunların üzərində niyə bir qədər detallı dayanırıq? Çünki dövlət başçısı İlham Əliyevin kadr seçimində zərgər dəqiqliyi ilə qərar qəbul etdiyini və bu zaman çoxsaylı faktorlara önəm verdiyini dərk etmək gərəkdir. Prezident kadrların peşəkar səviyyəsi ilə yanaşı, onların dövlətçiliyə sədaqətini, mədəni səviyyəsini, biliyini və əxlaqını da nəzərə alır.

Digər tərəfdən, bir sıra dairələrin azərbaycanlı məmurlar haqqında reallığa uyğun olmayan təsəvvürlər formalaşdırmasına imkan vermək olmaz. O cümlədən Azərbaycanın yeni Baş nazirinin hansı müsbət keyfiyyətlərə malik olduğu barədə hər kəsin konkret təsəvvürü olmalıdır. Hazırda dünyanın inkişaf etmiş ölkələrində ziyalı, savadlı, yüksək ünsiyyət mədəniyyətinə malik və işini yaxşı bilən insanlara üstünlük verirlər. Novruz Məmmədovda bu keyfiyyətlərin hamısı vardır.

Bu kontekstdə qonşu dövlətlərin kadr siyasətinə də nəzər salmaq yerinə düşər. Bu dövlətlərdə yüksək vəzifələrə gətirilən kadrlar sırasında elm və təhsil sahəsində çalışmış, elmi rütbəsi və elmi dərəcəsi olanları xüsusi vurğulayırlar. Çünki XXI əsr intellektlərin, zəkaların və mədəniyyətlərin yarışı dövrüdür. Azərbaycanda da Baş nazirin məhz həmin keyfiyyətlərə malik insan olması qürurvericidir. Bu reallığı bir kənara qoyub, həqiqətdən çox uzaq fikirlər səsləndirən, yaxud yanlış rəy formalaşdırmağa cəhd edən hər kəsi öz vicdanının mühakiməsinə buraxırıq.

## Sabaha inamla: gələcək fəaliyyətin əsas istiqamətləri

Novruz Məmmədov Milli Məclisin onun Baş nazir vəzifəsinə təyin edilməsinə razılıq verməsindən sonra parlamentdəki çıxışı zamanı deyib: "Baş nazir vəzifəsi çox çətin, lakin şərəfli vəzifədir. Dövlətimizin başçısı İlham Əliyev ilə birlikdə işləmək çox şərəflidir". Bu, dövlətçilik baxımından yüksək bir mövqedir. Təbii ki, Baş nazir öz vəzifəsinin öhdəsindən layiqincə gəlməlidir və eyni zamanda, dövlətimizin başçısının bütün tapşırıqlarını dəqiq yerinə yetirməlidir. Novruz Məmmədovun dövlətçiliyə sadiq kadr kimi bu vəzifələrin öhdəsindən layiqincə gələcəyi qətiyyən şübhə doğurmur. Bu məqamı onun Azərbaycan dövlətçiliyi ilə bağlı ifadə etdiyi fikirlərdən də aydın duymaq olar: "Azərbaycan bu gün dünya miqyasında özünün yeri, mövqeyi olan bir ölkədir. Azərbaycan ən mürəkkəb geosiyasi məkanda yerləşir. XXI əsrin ikinci onilliyində dünyada gərgin proseslərin getdiyi belə bir vəziyyətdə Azərbaycanda sabitliyin, təhlükəsizliyin və uğurlu dinamik inkişafın davam etdirilməsi bizim hər birimizin qarşısında çox böyük vəzifələr qoyur". Novruz Məmmədov fikirlərinə davam edərək, bunun çox çətin vəzifə olduğunu və onun öhdəsindən gəlmək üçün Azərbaycan Prezidentinin rəhbərliyi ilə, dövlət və hökumət strukturları, eyni zamanda, Milli Məclis ilə sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərəcəyini bəyan edib: "Çalışacağam ki, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi yolu Azərbaycan Prezidentinin rəhbərliyi ilə davam etdirək".

Bu fikirlərdəki məntiqə diqqət yetirsək görərik ki, Novruz Məmmədov üzərinə düşən vəzifənin vacibliyini, ulu öndərin müəyyənləşdirdiyi dövlət quruculuğu kursunun alternativsizliyini və Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələri yerinə yetirmək məsuliyyətini dərindən dərk edir. Şübhəsiz, bütün bunlar müasir dövrün tələbləri səviyyəsində fəaliyyət göstərmək üçün ən zəruri keyfiyyətlərdəndir.

Novruz Məmmədov uzun müddət xarici siyasət məsələləri ilə məşğul olan şəxs kimi, əldə etdiyi təcrübədən də yararlanacağını bildirib. Heydər Əliyev məktəbinin layiqli yetirmələrindən biri olan yeni Baş nazir ötən müddətdə Azərbaycanın təşəbbüsü və fəal iştirakı ilə siyasət, energetika, idman, mədəniyyət, multikulturalizm sahələrində də mühüm beynəlxalq layihələrin uğurla həyata keçirildiyini xüsusi vurğulayıb. Bütövlükdə ölkəmizin beynəlxalq əməkdaşlığa çox böyük töhfələr verdiyini deyən Novruz Məmmədov yaxın gələcəkdə Avrasiyanın ən böyük nəqliyyat qovşağının məhz Azərbaycan olacağına əminliyini ifadə edib.

Bütün bunlardan çıxış edən yeni Baş nazir deyib: "Mənim qarşımda duran əsas vəzifə Azərbaycanın iqtisadi sahədə bu günə qədər əldə etdiyi uğurların istiqamətlərini daha da konkretləşdirmək, hansı islahatların daha vacib olduğunu, qarşıda bizi nələrin gözlədiyini nəzərə alaraq addımlar atmaqdır".

Beləliklə, zəngin dövlətçilik və idarəetmə təcrübəsinə malik olan Novruz Məmmədov dövlət siyasətinin incəliklərinə dərindən bələddir. O, həm hazırkı mürəkkəb şəraitdə beynəlxalq əlaqələri, beynəlxalq iqtisadi münasibətləri və onların diktə etdiyi siyasi prosesləri dərindən analiz etmək, düzgün nəticələr çıxarmaq bacarığına, həm də ölkənin daxili strateji məqsədləri haqqında hərtərəfli biliyə malik bir dövlət məmurudur. Onun cəmiyyətdəki nüfuzu kifayət qədər yüksəkdir. Hər kəs Novruz Məmmədovun Azərbaycanın dünyanın ən yüksək inkişaf etmiş ölkələrindən birinə çevrilməsi üçün Baş nazir kimi əlindən gələni əsirgəməyəcəyinə inanır. Biz, Novruz Məmmədova bu məsuliyyətli yüksək vəzifədə uğurlar arzulayırıq!

***Newtimes.az***

# BSU-da “Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində” mövzusunda elmi-praktik konfrans keçirilib

***Dünən Bakı Slavyan Universitetində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş “Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində” mövzusunda tələbə və magistrantların respublika elmi-praktik konfransı keçirilib. Konfransı BSU-nun rektoru, professor Nurlana Əliyeva açaraq Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə, tariximizdəki yerinə və roluna qısa nəzər salıb.***



O, 23 ay mövcud olmuş AXC-nin Azərbaycanı beynəlxalq aləmdə tanıtmaq istiqamətindəki gərgin fəaliyyətindən, cümhuriyyət liderlərinin fədakarlığından, millət qarşısındakı xidmətlərindən danışıb. N.Əliyeva bugünkü Azərbaycan Respublikasının məhz AXC ənənələrini, Cümhuriiyyət qurucularının arzu və istəklərini həyata keçirdiyini bildirib. Professor 2018-ci ilin “Azərbaycan Xalq Cümhuriyyəti ili” elan edilməsi haqqında Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı Sərəncamı xüsusi tarixi hadisə kimi dəyərləndirib. O, Azərbaycanla Türkiyənin bir millət iki dövlət olduğunu bir daha diqqətə çatdırıb və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu günlərdə Türkiyəyə səfərini də həmin prizmadan qiymətləndirib.



N.Əliyeva Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında” 2017-ci il 16 may tarixli Sərəncamını tarixi hadisə adlandırıb. O, gəncləri vətənpərvərliyə, müstəqilliyimizin və suverenliyimizin keşiyində durmağa səsləyib. N.Əliyeva keçirilən “Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində” adlı konfransın mühüm bir məsələyə - beynəlxalq münasibətlər sistemində respublikamızın roluna həsr olunduğunu qeyd edib və konfransın işinə uğurlar diləyib.

Konfransda çıxış edən elmi işlər üzrə prorektor, professor Rafiq Novruzov konfransın işi barədə ətraflı məlumat verərək, konfransa 19 universitetdən 160 tələbə və magistrantın qatıldığını deyib. O, Ukraynanın Poltava İqtisadiyyat və Ticarət Universitetinin nümayəndəsinin də konfransda iştirak etdiyini bildirib. R.Novruzov əlavə olaraq qeyd edib ki, elmi-praktik konfrans təkcə beynəlxalq münasibətlər və regionşünaslıq fakültəsində deyil, universitetin bütün fakültələrində nəzərdə tutulub.

Konfransda çıxış edən BSU-nun beynəlxalq münasibətlər və regionşünaslıq fakültəsinin dekanı, dosent Şirinbəy Əliyev konfrans iştirakçılarına Cümhuriyyətin Azərbaycan tarixindəki yeri və 1990-cı illərin əvvəlində Ulu Öndər Heydər Əliyev tərəfindən üçrəngli bayrağımızın yüksəldilməsi və digər önəmli məsələlər barədə danışıb.

Qeyd edək ki, konfrans 6 bölmə üzrə öz işini davam etdirəcək. Konfrans iştirakçılarına bölmə iclaslarının sonunda universitet tərəfindən sertifikatlar veriləcək.

***ZÜMRÜD***

# Musa Quliyev: “Hər iki ölkə qardaş və strateji partnyor ölkələrdir”



“Azərbaycan və Türkiyə həmişə bir-birinin yanındadır. Hər iki ölkə qardaş və strateji partnyor ölkələrdir. Azərbaycan Prezidenti İlham Əliyevin orada Türkiyə Prezidenti Rəcəb Tayyip Ərdoğanı seçkilərdən sonra Bakıya dəvət etməsi və Ərdoğanın da birinci səfərimi Bakıya edəcəm söyləməsi göstərdi ki, artıq bu münasibətlər ənənə halını alıb”. Bunu SİA-ya açıqlamasında millət vəkili Musa Quliyev deyib. Onun sözlərinə görə, artıq neçənci dəfədir ki, Azərbaycan Prezidenti ilk səfərini Türkiyəyə edir, eləcə də qarşılıqlı olaraq Türkiyə Prezidenti ilk səfərini Azərbaycan edir: “Bunun dünya üçün, eləcə də ölkə xalqları üçün çox böyük əhəmiyyəti var. Cənab İlham Əliyev Türkiyə Prezidenti ilə görüşü zamanı çox ciddi mesajlar verdi. Bu mesajlar Dağlıq Qarabağla bağlı idi, Azərbaycanın həmişə Türkiyənin, Türkiyənin də hər zaman Azərbaycanın yanında olması ilə bağlı idi, həmçinin Afrin əməliyyatları zamanı Azərbaycanın Türkiyənin yanında olması ilə bağlı idi. Eyni zamanda orada Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclası keçirildi və bir sıra müqavilələr, sənədlər imzalandı. Bu bir daha göstərir ki, Azərbaycan və Türkiyə Ümummilli Lider Heydər Əliyevin söylədiyi kimi “bir millət, iki dövlətdir”. Bu siyasət cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir”.

# AZAL İsrailə olan uçuşlarının sayını artırır



“Azərbaycan Hava Yolları” QSC (AZAL) İsrailə olan uçuşlarının sayını artırır. AZƏRTAC xəbər verir ki, bu barədə aviaşirkətdən məlumat verilib. Bildirilib ki, yay mövsümü ilə əlaqədar İsrailə həyata keçirilən uçuşların sayı 5-ə çatdırılıb. İyunun 10-dan oktyabrın 25-dək həftənin çərşənbə axşamı 1, cümə axşamı 2 və bazar günləri 2 dəfə Təl-Əvivə uçuşlar yerinə yetiriləcək. Qeyd edək ki, hazırda AZAL Bakıdan Təl-Əvivə həftədə iki dəfə, çərşənbə axşamı və bazar günləri “Airbus A320” təyyarələri ilə aviareyslər həyata keçirir.





# Xeyirxahlıq akademik Zərifə xanım Əliyevanın həyat tərzi idi

***Aprelin 26-da Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatında görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 95 illiyi münasibətilə təntənəli yubiley tədbiri keçirilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın zəngin həyat və fəaliyyətinə həsr olunan film nümayiş etdirilib.***

Milli Məclisin deputatı, YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev bildirib ki, yüksək mənəvi-əxlaqi dəyərlərə malik olan, gözəl insan, həssas xanım kimi yaddaşlara həkk olan Zərifə Əliyeva, eyni zamanda, Azərbaycan tibb elmində özünəməxsus yeri olan görkəmli alimdir. O, tibb elminin ən çətin və az tədqiq edilmiş sahələrindən biri olan oftalmologiyanı seçib, bütün elmi fəaliyyəti boyunca bu sahənin həll olunmamış problemlərinin tədqiqi ilə məşğul olub və bu sahədə çox böyük nailiyyətlər əldə edib. Ş.Hacıyev diqqətə çatdırıb ki, Zərifə Əliyeva həm müəllim, həm də həkim kimi fəaliyyət göstərib və hər zaman insansevərliyi, qayğıkeşliyi, ədalətliliyi ilə fərqlənib, intellektli, savadlı və dövlətçiliyimizə bağlı mütəxəssislər yetişdirməyi hər şeydən üstün tutub. Yalnız savadlı həkim, əsl pedaqoq və güclü psixoloq olan insan bu mənəvi hissləri özündə cəmləşdirə bilərdi. Qısa həyat yolu ərzində genişmiqyaslı işlər görmüş alim, eyni zamanda, böyük bir missiyanı da yerinə yetirib. Heydər Əliyev kimi dahi şəxsiyyətin, görkəmli dövlət başçısının, diplomatın, siyasətçinin etibarlı, dəyanətli, şəfqətli və cəsur həyat yoldaşı olmaq məhz ona nəsib olub. Zərifə Əliyeva ən çətin məqamlarda Heydər Əliyevə dəstək olub. Bütün bunlar Zərifə xanımın mətanəti, dəyanətli, cəsur bir Azərbaycan qadınına xas xüsusiyyətlərə malik olduğunu bir daha sübut edir. Onun yüksək mənəvi keyfiyyətləri bütün Azərbaycan xalqına, xüsusilə qadınlarımıza və gənc qızlarımıza nümunədir.

Milli Məclisin deputatı, tanınmış yazıçı-publisist Elmira Axundova, YAP Səbail rayon təşkilatının İdarə Heyətinin üzvü, Milli Məclisin şöbə müdiri Adilə Abasova, Koreya Şərq Təbabəti Klinikasının baş həkimi Zərifə xanım Quliyeva akademik Zərifə Əliyevanın həyat və elmi fəaliyyəti haqqında danışıb, onunla bağlı xatirələrini bölüşüblər. Qeyd edilib ki, fitri istedada malik və novator tədqiqatçı həkim kimi tanınmış Zərifə xanım Əliyevanın keçdiyi şərəfli həyat yolu hər bir azərbaycanlı üçün kamillik və müdriklik məktəbidir. Xeyirxahlıq dünya şöhrətli bir çox oftalmoloqun haqqında yüksək fikirlər söylədiyi Zərifə xanımın həyat tərzi idi. Nəcib insan, dəyanətli və ləyaqətli Zərifə xanımın xatirəsi əbədi olaraq Azərbaycan xalqının qəlbində yaşayacaq. Tədbirdə Azərbaycan Respublikasının Xalq Artisti Laləzar Mustafayeva Zərifə xanım Əliyevanın əziz xatirəsinə həsr olunan “Ana” şeirini səsləndirib.

# Həyata keçirilən layihələr sayəsində Azərbaycanda enerjinin ötürülməsi sistemi son dərəcə müasirləşib

## *"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyevin yap.org.az-a müsahibəsi*

***- Etibar müəllim, son 14 ildə Azərbaycanda həyata keçirilən məqsədyönlü siyasət sayəsində bütün sahələrdə dinamik inkişaf təmin edilib, ölkədə yeni müsbət reallıqlar yaranıb. Deyilənlər kontekstində istərdik ki, respublikanın elektroenergetika potensialının artması, yeni generasiya güclərinin yaradılması barədə məlumat verəsiniz.***

-Son 14 ildə ölkəmizin inkişafı ardıcıl xarakter daşıyıb və konseptual əsaslara söykənib. Əvvəlcə müxtəlif istiqamətlər üzrə prioritetlər, hədəflər müəyyənləşdirilib və qarşıya qoyulan məqsədlərə çatmaq üçün sistemli iş aparılıb. Məlumdur ki, bəhs olunan dövrdə ölkəmizin həyatı Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq geniş infrastruktur quruculuğu ilə səciyyələnib. Respublikamızda 2004-cü ildən uğurla reallaşdırılan regionların sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət proqramlarının icrasına da məhz bölgələrdə yeni infrastruktur obyektlərinin yaradılması ilə başlanılıb ki, bu da təsadüfi deyildir. Respublikada infrastruktur təminatının möhkəmlənməsi öz növbəsində bir tərəfdən əhalinin rifah halının yaxşılaşmasına, digər tərəfdən isə iqtisadi aktivliyin artmasına müsbət təsir göstərir. Əlçatan xidmətlərdən, yüksək səviyyəli kommunal rahatlıqlardan məmnun qalan insanlar öz doğma yurd yerlərinə daha möhkəm tellərlə bağlanırlar. Bundan başqa, özəl bölmə təmsilçiləri dövlət əsaslı vəsait qoyuluşu hesabına yaradılan infrastrukturdan bəhrələnərək müxtəlif istiqamətlərə məmnuniyyətlə sərmayələr yönəldirlər, yeni müəssisələrin, təsərrüfatların yaradılmasına böyük təşəbbüs göstərirlər.

Azərbaycanın infrastruktur quruculuğuna güclü siyasi iradə nümayiş etdirməsi və yeni layihələrin hərtərəfli şəkildə dəstəklənməsi özünün uğurlu nəticələrini verib. Belə ki, çox qısa müddətdə respublikamız bütün dünya miqyasında güclü infrastruktur təminatına malik olan ölkəyə çevrilib. Son 14 ildə ölkədə aparılan infrastruktur quruculuğundan söhbət açarkən respublikanın enerji təminatının güclənməsini xüsusi qeyd etmək lazımdır. Respublikamızda elektroenergetika təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi siyasətinin əsasını Ulu öndər Heydər Əliyev qoyub. Sonrakı mərhələdə bu siyasət eyni ardıcıllıqla Prezident İlham Əliyev tərəfindən davam etdirilib. Belə ki, son 14 ildə ölkənin elektroenergetika potensialının gücləndirilməsi, sənayenin və kənd təsərrüfatının enerjiyə getdikcə artan tələbatının ödənilməsi üçün bu sahəyə ardıcıl şəkildə böyük həcmlərdə investisiyalar yönəldilib. Qeyd edək ki, 2004-cü ilə qədər Azərbaycanda cəmi 9 elektrik stansiyası mövcud idi və onların ümumi potensialı 3900 meqavata bərabər idi. Son 14 ildə isə respublikamız məqsədyönlü investisiya qoyuluşu sayəsində ümumi generasiya gücü 2500 meqavata çatan 30 elektrik stansiyası tikməyə nail olub. Mən onlardan bir neçəsini sadalamaq istərdim. Cənub bölgəsində inşa edilən 87 MVt gücündə Astara elektrik stansiyası 3 fevral 2006-cı il tarixində istismara verilib. Bundan sonra 87 MVt gücündə Şəki elektrik stansiyası 14 oktyabr 2006-cı il tarixində işə salınıb. 2006-cı ildə həmçinin Xaçmaz elektrik stansiyasının (87 MVt gücündə), Naxçıvan Muxtar Respublikasında Vayxır su elektrik stansiyasının (5



MVt gücündə), Naxçıvan qaz-turbin elektrik stansiyasının (64 MVt), Naxçıvan elektrik stansiyasının (87 MVt) tikintisi başa çatdırılıb. Sonrakı illərdə 104 MVt gücündə Bakı elektrik stansiyasının, 300 MVt gücündə Səngəçal elektrik stansiyasının, 104 MVt gücündə "Şahdağ" elektrik stansiyasının, 525 MVt gücündə Sumqayıt elektrik stansiyasının, 20 MVt gücündə Biləv su elektrik stansiyasının, 5,6 MVt gücündə Qobustan Hibrid elektrik stansiyasının, 25 MVt gücündə "Şəmkirçay" su elektrik stansiyasının, 780 MVt gücündə "Cənub" elektrik stansiyasının, 25 MVt gücündə "Taxtakörpü" su elektrik stansiyasının və digərlərinin açılışı keçirilib.

Ölkədə yeni generasiya güclərinin yaradılması siyasəti 2017-ci ildə də davam etdirilib. Belə ki, ötən il "Pirallahı" günəş elektrik stansiyası, "Balakən-1" kiçik su elektrik stansiyası, "Çiçəkli" kiçik su elektrik stansiyası respublikanın elektroenergetika sisteminə daxil edilib, bundan başqa Yevlax rayonu ərazisində altmış il əvvəl inşa olunmuş Varvara Su Elektrik Stansiyasının yenidən qurulması işləri yekunlaşdırılıb. Yenidənqurma nəticəsində stansiya 18 MVt qoyuluş gücünə çatdırılıb. Prezident İlham Əliyevin daimi diqqət və qayğısı olmasaydı, qısa müddətdə ölkənin elektroenergetika təsərrüfatında belə irimiqyaslı layihələri reallaşdırmaq mümkün olmazdı. Əlamətdar haldır ki, Prezident İlham Əliyev respublikada yeni tikilən və yaxud yenidən qurulan, generasiya gücləri artırılan əksər elektrik stansiyalarının işə salınması mərasimlərində şəxsən iştirak edib və Özünün dəyərli tövsiyələrini verib.

Beləliklə, hazırda respublikanın elektroenergetik sistemində ümumi gücü 6000 MVt-dan artıq olan 38 elektrik stansiyası fəaliyyət göstərir. Onlardan 16-sı istilik elektrik stansiyası, 12-si su elektrik stansiyası, 6-sı kiçik su elektrik stansiyası, 1-i hibrid tipli elektrik stansiyası və 3-ü günəş elektrik stansiyasıdır.

***- Ölkədə yeni generasiya güclərinin yaradılması həmçinin enerjinin ötürülməsi sisteminin dayanıqlılığını artırmağı tələb edir.***

- Prezident İlham Əliyev ölkənin elektrik enerjisi təsərrüfatında məsələlərə kompleks yanaşmağı, bütövlükdə təsərrüfatı müasirləşdirməyi qarşıya vəzifə qoyub. Təbii ki, enerjinin ötürülməsi sistemi də yeni generasiya güclərinin yaradılmasına adekvat şəkildə daim müasirləşdirilməli, bütövlükdə sistemin etibarlılığı və dayanıqlılığı getdikcə artan gücə uyğunlaşdırılmalıdır. Nasaz və yaxud müasir tələblərə cavab verməyən ötürücü şəbəkə itkilər, təminatda fasilələr yaranması deməkdir ki, belə neqativ hallar indiki dövrdə heç bir vəchlə məqbul sayıla bilməz. Buna görə də mövcud qurğu və avadanlıqlarda, yüksək gərginlikli hava xətlərində mütəmadi olaraq təftişlər aparılması, nasazlıqları aşkar edib profilaktik tədbirlər görülməsi, habelə payız-qış mövsümünə hazırlıq tədbirlərinin planauyğun şəkildə vaxtında yerinə yetirilməsi əsas vəzifələrdən hesab olunur. Əslində, enerjinin ötürülməsi sisteminin mütəmadi qaydada nəzarət altında saxlanılması və yenilənməsi bizim gündəlik işimizdir, desəm, əsl həqiqəti ifadə etmiş olaram. Son 14 ildə bu istiqamətdə bütün ölkə miqyasında böyük iş həcmi yerinə yetirilib. Fəxrlə deyə bilərəm ki, ardıcıl şəkildə həyata keçirilən layihələr hesabına Azərbaycan son dərəcə müasir enerjinin ötürülməsi sisteminə sahiblənib.

Respublikada enerjinin ötürülməsi sisteminin yenilənməsi baxımından 2017-ci il də istisna təşkil etməyib. Həmişə olduğu kimi, 2017-ci ildə də respublikanın elektroenergetika sistemi üçün strateji əhəmiyyətə malik sistem təşkiledici şəbəkə xüsusi diqqət mərkəzində saxlanılıb. Belə ki, ötən il ərzində 500 kV-lik "Abşeron" yarımstansiyasında 3 ədəd 133 MVA gücündə avtotransformatorun yeni tikilən 10 kV-lik qapalı paylayıcı qurğusu sxemə salınıb. 220 kV-lik 7-ci "Abşeron" hava xəttində 2 ədəd tutum gərginlik transformatoru quraşdırılıb. 10 kV-lik II bölmə avadanlıqları -avtotransformatorun və 2 saylı 630 kVA-lıq xüsusi sərfiyyat transformatorunun 10 kV-lik yağ açarları vakuum açarlı yuvalarla, gərginlik transformatorunun yuvası isə yenisi ilə əvəz olunub. 330 kV-lik "Gəncə" YS-də 1 saylı 200 MVA-lik avtotransformator əsaslı təmir olunub, 1 saylı 200 MVA avtotransformatorun yeni tikilən 10 kV-lik qapalı paylayıcı qurğusu sxemə salınıb, 2 saylı 250 MVA-lik avtotransformatorun 110 kV-lik cərəyan transformatoru yenisi ilə əvəz olunub. 330 kV "Ağstafa" YS-də 110 kV-lik 1-ci "Ağstafa" HX-nin I, II sistem şinlərində şin ayırıcıları yeniləri ilə əvəz edilib, 330 kV I, II və dolayı şin sistemində izolyatorlar yenilənib, 330 kV-lik 3-cü "Ağstafa" hava xətlərinin boşaldıcıları yeni tipli boşaldıcı ilə əvəz olunub. Bütün bunlarla yanaşı, 220 kV-lik "Səngəçal", "Hövsan" YS-lərdə şin ayırıcıları, dolayı eleqaz açarları, boşaldıcılar və digər avadanlıqlar yenilənib.

Ötən il Regional Elektrik Şəbəkələrin balans mənsubiyyətinə aid olan 110 kV-lik "Binəqədi", "Ramana", "Qala", "Binə" və bir neçə digər yarımstansiyada da müxtəlif təyinatlı təmir işləri həyata keçirilib. Ümumilikdə, il ərzində yarımstansiyalarda 145-dən artıq transformator, 510-dan artıq eleqaz, 480 ədəd yağ və 410-dan çox vakuum açarları əsaslı və cari təmir olunub. Yarımstansiyalarda fiziki və mənəvi cəhətdən köhnəlmiş avadanlıqların yeniləri ilə əvəz olunması, müasir mühafizə, idarəetmə və avtomatika panellərinin quraşdırılması işləri həyata keçirilib və hazırda bu işlər davam etdirilir.

Avadanlıqlardakı çatışmazlıqların müəyyənləşdirilib aradan qaldırılması üçün 225 ədəd transformator və avtotransformator, 700-dən artıq müxtəlif tipli açar, 1520-yə yaxın boşaldıcı, 760-dan çox gərginlik və cərəyan transformatorunda profilaktik sınaq-yoxlama işləri aparılıb.

2017-ci ildə Mingəçevir SES-də 110 kV-lik yarımstansiyalarda yeni açıq paylayıcı qurğunun tikintisi ilə əlaqədar, 110 kV-lik 1-ci və 2-ci "Gəncə", 1-ci və 2-ci "Yevlax", 1-ci və 2-ci "Şəhər" hava xətlərinin trasında anker və aralıq dayaqlar quraşdırılıb, 220 kV-lik 2-ci "Ağdaş" hava xəttinin Turyançay vadisindən keçən hissəsində hava xəttinin 2,5 km hissəsi yeni əraziyə köçürülüb. Eyni zamanda, 220 kV-lik ikidövrəli "Şimal ES - Zabrat YS" və "Şimal ES - Hövsan YS" hava xətlərinin tikintisi layihəsi üzrə tikinti işləri başa çatdırılıb, 110 kV-lik 3-cü, 4-cü "Ağdaş" hava xətlərinin tikintisi tamamlanıb və hava xətləri şəbəkəyə qoşulub.

İl ərzində Elektrik Verilişi Xətlərində görülmüş işlərin həcmi də kifayət qədər böyükdür. Ümumilikdə, il ərzində balans mənsubiyyətinə aid olan elektrik verilişi xətləri üzrə 900 km-dən artıq hava xətti əsaslı təmir edilib. Təmir qrafiki çərçivəsində 11 min 400-ə yaxın izolyator, onlarca dayaq dəyişdirilib və yaxud təmir edilib.

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətində müvafiq Strateji Yol Xəritəsinin Tədbirlər Planı çərçivəsində tərtib edilən İcra Planı eyni zamanda sözügedən istiqamətdə də keyfiyyətcə yeni mərhələnin başlanılmasına, bu sahədə innovativ texnologiyaların tətbiqi ilə enerjisistemin səmərəliliyinin yüksəldilməsinə və elektrik enerjisinin ötürülməsi infrastrukturunun daha da müasirləşdirilməsinə hesablanıb.

***- Yeni generasiya güclərinin yaradılması, ötürücü şəbəkədə görülən işlər, yəqin ki, istehsalın artmasına və keyfiyyətin yaxşılaşmasına da öz müsbət təsirini göstərib.***

- Energetika hər bir ölkədə iqtisadiyyatın bel sütunu, təməli sayılır. Hazırda Azərbaycan innovasiyalara əsaslanan müasir iqtisadiyyat quruculuğuna, o cümlədən də sənaye inkişafına istiqamətlənib. Bütün ölkə boyu çoxlu sayda yeni müəssisələr yaradılır. Respublikada aqrar sektor yeni yanaşmalar əsasında inkişaf etdirilir. Digər tərəfdən, ölkəmizdə uğurlu siyasətin nəticəsi olaraq əhali artır və yeni yaşayış kompleksləri tikilir. Ölkədə gedən belə güclü inkişaf isə daha çox həcmdə enerji tələbatı deməkdir. Prezident İlham Əliyev qarşıya mühüm tələb qoyub ki, ölkədə yeni generasiya güclərinin yaradılması, enerji istehsalı milli iqtisadiyyatın enerjiyə olan tələbatını qabaqlamalıdır. Biz də dövlət başçısının tapşırığını əsas tutaraq bütün səylərimizi, gücümüzü ortaya qoymaqla bu tələbatı qarşılamağa, daha çox həcmdə enerji istehsal etməyə çalışırıq. Aydın məsələdir ki, son 14 ildə respublika miqyasında yeni generasiya gücləri yaradılmasa idi, ötürücü şəbəkədə innovasiyaların tətbiqinə hesablanan layihələr həyata keçirilməsə idi, əhalinin və iqtisadiyyatın getdikcə artan tələbatını qarşılayacaq həcmdə enerji istehsalına nail olmaq da real deyildi. Hazırda respublikanın elektroenergetika təsərrüfatı özünün hərtərəfli və davamlı inkişaf dövrünü yaşayır. Respublikamızda 2001-ci ilədək mövcud olan enerji çatışmazlığı problemi tam aradan qaldırılıb. Daxili istehlakın yüz faiz yerli istehsal hesabına ödənilməsi və respublikadan müəyyən həcmlərdə elektrik enerjisi ixrac olunması qürurverici haldır. 2017-ci ildə respublikada ümumilikdə elektrik enerjisinin istehsalı 21,8 milyard kilovat-saat təşkil edib. Bunun 20,2 milyard kilovat-saatı istilik elektrik stansiyalarının, 1,6 milyard kilovat-saatı isə su elektrik stansiyalarının payına düşüb.

Kəmiyyət göstəriciləri ilə yanaşı, keyfiyyət göstəricilərimiz də əhəmiyyətli dərəcədə yaxşılaşıb. Elektrik enerjisinin istehsalı, ötürülməsi, dispetçer idarəetməsini həyata keçirən və öz fəaliyyəti sahəsində regionda aparıcı müəssisə olan "Azərenerji" ASC-nin başlıca məqsədi və vəzifəsi Azərbaycan Respublikasının elektroenergetika sisteminin dayanıqlılığını təmin etməklə, elektrik enerjisinin istehlakçılara etibarlı, təhlükəsiz və səmərəli ötürülməsini həyata keçirmək, öz fəaliyyətini davamlı şəkildə təkmilləşdirmək, istehlakçıların tələbatını tam həcmdə ödəmək, xarici bazarda inamlı tərəfdaş mövqeyini möhkəmləndirməkdir. "Azərenerji" üzərinə düşən öhdəlikləri yüksək səviyyədə yerinə yetirərək istehlakçıların elektrik enerjisinə olan tələbatlarını fasiləsiz şəkildə təmin etməklə, onlara göstərilən xidmətlərin keyfiyyətini davamlı artırmaqla müştəri məmnunluğunu yüksək səviyyədə təmin etməyə çalışır. ASC və onun tabeçiliyində olan müəssisələr "İSO 9001:2008 Keyfiyyət İdarəetmə Sistemləri" Beynəlxalq Standartının tətbiq olunmasını bəyan edib.

***- Perspektiv inkişaf planlarınız barədə nə deyə bilərsiniz?***

- Elektroenergetika sistemi ölkənin sosial-iqtisadi inkişafı baxımından strateji sahə olduğuna görə burada daim perspektiv inkişafla bağlı yeni hədəflər müəyyənləşdirilir. Bizim də perspektivdə istehsalın genişləndirilməsi, keyfiyyətin yaxşılaşdırılması ilə bağlı planlarımız olduqca əhatəlidir. Mən uzaq planlar barədə söhbət açmaq istəmirəm. Onu demək istəyirəm ki, cari ildə elektroenergetika sistemində bir sıra yeniliklərin olacağı gözlənilir. 2010-2017-ci illərdə aparılan yenidənqurma işləri çərçivəsində gücü 424 MVt-a çatdırılmış Mingəçevir su elektrik stansiyasının 2018-ci ildə istifadəyə verilməsi nəzərdə tutulur. 2011-ci il 21 sentyabr tarixində Bakı şəhərində 409 MVt gücündə "Şimal-2" elektrik stansiyasının təməli qoyulub. Artıq burada son tamamlama işləri aparılır və stansiyanın cari ildə istismara verilməsi gözlənilir. Lerik rayonunda tikilən 16,5 MVt gücündə elektrik stansiyası da 2018-ci ildə istismara veriləcək. Son illərdə respublikamızda kiçik su elektrik stansiyalarının tikintisi də geniş vüsət alıb. Artıq yeni tikilən bir neçə su elektrik stansiyası uğurla fəaliyyət göstərir. Cari ildə bu qəbildən olan "Astara-1", "Oğuz-1", "Oğuz-2" və "Oğuz-3" kiçik su elektrik stansiyalarının istifadəyə verilməsi nəzərdə tutulur.

# “Qan ver, yaşat”

*Sabunçu rayonunda oftalmoloq-alim Zərifə xanım Əliyevanın anadan olmasının 95 illik yubileyi münasibətilə qanvermə aksiyası keçirildi*

***Dünən Yeni Azərbaycan Partiyası Sabunçu rayon təşkilatı və Sabunçu rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Zərifə xanım Əliyevanın anadan olmasının 95 illik yubileyi münasibətilə qanvermə aksiyası keçirildi. Artıq on ildir ki, “Qan ver, yaşat” adı altında keçirilən aksiya, hər zaman olduğu kimi, bu gün də insan izdihamı ilə müşahidə olunurdu.***





YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva görkəmli alim Zərifə xanım Əliyevanın ömür yoluna qısa şəkildə nəzər salaraq, qaranlıq dünyalara nur verən, fitri istedada malik novator alimin keçdiyi şərəfli həyat yolunun hər bir Azərbaycan vətəndaşı, alim və həkim üçün örnək, müdriklik məktəbi olduğunu qeyd etdi: “Elm, ədalət, səxavət, səbr, ismət kimi keyfiyyətlər Onun həyat simvoluna çevrildi. Bu dəyərlər içərisində güclü və fədakar oldu. Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi hər kəsə bəlli nümunəvi yoldur. Müstəqil Azərbaycan dövlətinin Memarı və Qurucusu, ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş Ümummilli Lider Heydər Əliyevin həm vəfalı ömür-gün yoldaşı, həm də sədaqətli dostu, etibarlı silahdaşı Zərifə xanım Əliyeva Azərbaycan Prezidenti İlham Əliyevin anasıdır. Zərifə xanım Əliyevanın oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar və yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir”.

YAP Sabunçu rayon təşkilatının sədri onu da bildirdi ki, Zərifə xanım Əliyevanın elmi, tibbi və pedaqoji fəaliyyəti, ictimai fəallığı, çoxillik elmi-tədqiqat işlərində böyük xidmətləri layiqincə qiymətləndirilib. Azərbaycan oftalmologiya məktəbinə dəyərli töhfəsini vermiş Zərifə xanımın gənc kadrların hazırlanmasında böyük əməyi olduğunu qeyd edərək, yaşanılan ömür yolunun sərlövhələrinin Onu zamanımızın seçilən xanımı etməklə yanaşı, gələcək nəsillər üçün örnək olacaq bir simaya çevirdiyini vurğuladı: “Onun yaratdığı məktəb gələcək nəsillərimizə də əvəzolunmaz töhfələrini verəcək və daim Azərbaycan xalqının qəlbində yaşayacaq, xatirəsi uca tutulacaq”.

Sonra qanvermə aksiyası başlandı və Sabunçu rayonunu əhatə edən 200 nəfərdən çox partiya fəalı qan verdi. Aksiya iştirakçıları bu nəcib, humanist xarakterli aksiyanın xeyirxah və savab iş olduğunu bildirdilər.

Qeyd edək ki, yığılan qan ehtiyatı yoxlanılaraq talassemiya xəstəliyindən əziyyət çəkənlər üçün istifadə olunacaq.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Milli QHT Forumu 11 aprel prezident seçkilərinin müşahidə edilməsi ilə əlaqədar yekun hesabatını açıqlayıb

***Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumu aprelin 11-də ölkəmizdə keçirilmiş prezident seçkilərinin müşahidə edilməsi ilə əlaqədar yekun hesabatını açıqlayıb.***



AZƏRTAC xəbər verir ki, bununla əlaqədar keçirilən tədbirdə Milli QHT Forumunun prezidenti Rauf Zeyni bildirib ki, rəhbərlik etdiyi qurumun qərarı əsasında MQF seçki qərargahı yaradılmış, prezident seçkilərinin 118 seçki dairəsinin 1180 məntəqəsində 590 yerli və respublika üzrə 30 müşahidəçi ilə vətəndaş cəmiyyəti institutu olaraq müstəqil müşahidəsi həyata keçirilmişdir. O deyib ki, ölkədə azad, demokratik, şəffaf və ədalətli seçkilərin keçirilməsi üçün hər cür şərait yaradılmışdı. Mərkəzi Seçki Komissiyası tərəfindən seçki prosesini tənzimləyən hüquqi sənədlərin qəbul olunması seçkilərin beynəlxalq standartlara uyğun keçirilməsi üçün tam hüquqi təminat yaratmışdı. Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumu seçki müşahidə missiyası monitorinq zamanı seçki qanunvericiliyinin və ya seçici hüquqlarının pozulması faktlarına rast gəlməyib. Ölkədə sərbəst toplaşma, seçki kampaniyasının təşkili, mitinqlərin və digər kütləvi tədbirlərin keçirilməsi, söz azadlığı və digər hüquqlar tam təmin olunmuşdu. Görülən bütün işlər seçki prosesində ciddi irəliləyişlərin olduğunu deməyə əsas verir. ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun, Parlament Assambleyasının və Avropa Şurası Parlament Assambleyasının müşahidə missiyasının çoxsaylı üzvləri də ayrı-ayrılıqda seçkilərlə bağlı müsbət fikirlərini açıq şəkildə bəyan ediblər. Lakin təəssüflə qeyd edilməlidir ki, qurumların adından yayılan hesabatda seçkinin nəticələrinə heç bir təsir etməyən və mənbəyi məlum olmayan bəzi neqativ məqamlar qabardılıb, bu və ya digər xarakterli texniki problemlərin olduğu bildirilib. Bununla da çoxminlik müşahidəçinin, həm də öz nümayəndələrinin fikirlərindən kəskin fərqlənən mövqe nümayiş etdirilib. Bu hesabat özündə çoxsaylı daxili ziddiyyətlərlə diqqəti cəlb edir. Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumu bəyan edir ki, aprelin 11-də keçirilən prezident seçkiləri baş tutub və seçkilərin nəticələri xalqın iradəsini tam əks etdirir.

# Paytaxt Bakı “Formula-1” yarışlarına start verdi

Ölkəmizin bütün sahələrində, o cümlədən, kənd təsərrüfatında, kosmik və hərbi sənayedə, səhiyyədə, təhsildə və s. əldə olunan uğurları, eləcə də, beynəlxalq arenada qurduğu münasibətləri və davamlı inkişafı Azərbaycanın dünyada tanınmasına, söz və nüfuz sahibinə çevrilməsinə səbəb olan amillərdir. Azərbaycan qeyd olunan sahələrlə yanaşı, tolerant və multikultural dəyərlərə malik dövlət kimi də dünyada tanınır. Son illərdə ölkəmizdə keçirilən Bakı Humanitar Forumu, Mədəniyyətlərarası Dialoq Forumu, Avropa və islam ölkələri mədəniyyət nazirlərinin konfransı və onlarla belə beynəlxalq tədbirlər, ölkəmizin qısa müddət ərzində, əldə etdiyi yüksək inkişaf səviyyəsini, demək olar ki, bütün dünyaya nümayiş etdirmək baxımından böyük əhəmiyyət kəsb edir. Beynəlxalq tədbirlərin təşkili Azərbaycan dövlətinin sülhsevər olduğunu və multikulturalizm siyasətini bir daha dünya ictimaiyyətinə təqdim edir.




Beynəlxalq miqyaslı tədbirlərin keçirilməsi üçün ölkəmizə olan etimad Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin uğurlu xarici siyasəti sayəsində Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınmasının göstəricisidir. Eyni zamanda, bütün bu tədbirlər Azərbaycanın gücünü, potensialını və təşkilatçılıq qabiliyyətini bir daha nümayiş etdirir.

Bu gün ölkəmizdə möhtəşəm “Formula-1” yarışlarına start verildi. Artıq 3-cü dəfədir ki, paytaxt Bakıda keçirilən yarım əsrdən artıq tarixi olan “Formula-1” idman tarixində yeni maraqlı səhifədir. 1950-ci ildən etibarən hər il keçirilən “Formula-1”in möhtəşəmliyi üçün paytaxtımızda istənilən şərait yaradılıb. Əminliklə vurğulamaq olar ki, yarışların müvəffəqiyyətlə keçirilməsinə Bakı tam hazırdır. Bu günə qədər yarışların uğurla keçirilməsi üçün bir çox tədbirlər görülüb. Ötən il Bakıda keçirilən “Formula-1” Avropa Qran-Prisi yarışlarını dünyanın 200 qədər ölkəsində 500 milyondan çox azarkeş televiziya vasitəsilə izlədi. “Formula-1” üzrə dünya çempionatının tamaşaçı auditoriyası bütün qitələri əhatə etdi. Amerika, Avropa, Avstraliya, Asiya və Afrika ölkələrinin televiziya kanalları yarışları müntəzəm yayımladılar. Beş yüz milyon televiziya tamaşaçısının Avropa Qran-Prisində ən güclü pilotlarının mübarizəsini izləməklə yanaşı, şəhərimizin gözəlliyi ilə tanış olub, müasirliklə qədimliyin simvollarını özündə birləşdirən Bakı haqqında geniş məlumat əldə edə bildilər. ABŞ-ın, Böyük Britaniyanın, Kanadanın, Fransanın, İspaniyanın, Avstraliyanın, Braziliyanın, Portuqaliyanın, Almaniyanın, İtaliyanın, Cənubi Afrika Respublikasının, Rusiyanın, Yaponiyanın, Polşanın, Hindistanın məşhur televiziya kanalları Bakı Qran-Prisini yayımlamaqla yanaşı, paytaxtımıza həsr olunan 200-ə yaxın reportaj və material hazırladılar. Azərbaycanın beynəlxalq nüfuzlu yarışlara yüksək səviyyədə ev sahibliyi etməsi, qədim tarixi abidələrimiz diqqətdən kənarda qalmadı.

İnsanların televiziya vasitəsilə birbaşa izlədiyi yarışların keçirildiyi məkan şəhər halqası olduğundan, onlar təkcə avtomobilləri deyil, inkişaf etmiş Bakının gözəlliyini ətraflı görə bilirlər. “Formula-1” Azərbaycanı dünyaya tanıtmaq üçün ən yaxşı nümunə kimi dəyərləndirilir. “Formula-1” yarışı ölkəmizin təbliği, eləcə də, turistlərin cəlb edilməsi baxımından, ideal imkanlar yaratmış olur. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, “Formula-1” kimi bizim turizm potensialına dəstək verən ikinci beynəlxalq tədbir ola bilməz: “...ikinci belə beynəlxalq tədbir ancaq Yay Olimpiya Oyunları ola bilər. Amma Yay Olimpiya Oyunları bir dəfə keçirilir. Özü də o qədər böyük - milyardlarla vəsait tələb edir. Ancaq “Formula-1” hər il keçirilir”.

Təbii ki, “Formula-1” yarışları yüksək standartlara cavab verəcək. Təhlükəsizlik, infrastruktur hazırlığı, kütləvi tədbirlərin keçirilməsi ilə bağlı təşkilati və texniki bazanın mövcudluğu bunun əyani göstəricisidir. Bu yarış həm əhəmiyyətinə, həm də ölkəyə turistlərin cəlb edilməsi baxımından vacib tədbirlərdən biri hesab edilir.

Aprelin 27-29-da keçiriləcək yarışlar zamanı əyləncəli proqramlar da təqdim olunacaq. Belə ki, aprelin 27-də səhnəyə “Jamiroquai” qrupu çıxacaq və sonra onun ardınca gecə saatlarında DJ Afrojackın iştirakı ilə əyləncə proqramı baş tutacaq. Aprelin 28-də bir-birinin ardınca səhnədə Kristina Aqilera ilə “Axwell Ingrosso”, aprelin 29-da isə Dua Lipa ilə Martin Solveig yer alacaqlar. Həmçinin proqram aralarında verilən fasilələrdə yerli DJ-lər də səhnəyə çıxaraq tamaşaçılara əyləncə ilə dolu gecə təqdim edəcəklər. Əvvəlki illərdəkindən fərqli olaraq bu il dünya ulduzlarının konsert proqramları “Baku Crystal Hall”da keçiriləcək. Tamaşaçıların konsert zonasına rahat gediş-gəlişini təmin etmək üçün xüsusi avtobuslar fəaliyyət göstərəcək. Bir daha gözəl yarışlar izlənəcək və hamı Bakı küçələrində sürücülərin mübarizəsinə şahid olacaq.

**Nəzakət ƏLƏDDİNQIZI**

## Şabranda oftalmoloq-alim Zərifə xanım Əliyevanın anadan olmasının 95 illik yubileyi qeyd olundu

Dünən Yeni Azərbaycan Partiyası Şabran rayon təşkilatı rayonun Heydər Əliyev Mərkəzində görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın 95 illik yubileyi münasibəti ilə əlaqədar tədbir keçirdi.



Tədbiri giriş sözü ilə açan YAP Şabran rayon təşkilatı qadınlar şurasının sədri Minə Quliyeva bildirdi ki, Azərbaycanın əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin tarixinə parlaq səhifələr yazıb: "Zərifə xanım Əliyeva oftalmologiya elmində əldə etdiyi nailiyyətlərə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində əvəzsiz xidmətlərinə görə Azərbaycanın əməkdar elm xadimi adına layiq görülmüşdür. Zərifə xanım bütün elmi yaradıcılığı və fəaliyyəti ilə Azərbaycan elminin, Azərbaycan oftalmologiyasının fəxri idi".



O qeyd edib ki, Zərifə Əliyevanın traxoma xəstəliyinin qarşısının alınması sahəsində göstərdiyi xidmətlər bu gün də elmi ictimaiyyət tərəfindən hörmətlə yad edilir: "Bu gün Azərbaycanda oftalmologiyanın inkişafı istiqamətində görülən müsbət tədbirlər dünya elmi tərəfindən diqqətlə izlənilir".

Tədbirdə YAP Şabran rayon təşkilatının aparat rəhbəri Tahirə İbrahimova, partiya fəallarından Şabran rayon Mərkəzi Xəstəxananın həkimi Dilarə İdrisova, rayon xəstəxanasının göz həkimi Sənubər Müslümova, Könül Kəlbiyeva və başqaları çıxış edərək, görkəmli akademikin Azərbaycan tibb elminin inkişafındakı xidmətlərindən danışıblar. Qeyd olunub ki, Onun insanlıq naminə yüksək keyfiyyətləri həkimlər və tibb işçiləri üçün örnək olaraq qalacaq, hörmət və ehtiramla xatırlanacaqdır.

*Nəzakət ƏLƏDDİNQIZI*

## "700 min ağac əkək" kampaniyası Yevlaxda və Mingəçevirdə uğurla davam edir

Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi münasibəti ilə Yevlax rayonunda YAP Yevlax və YAP Mingəçevir təşkilatlarının birgə iştirakçılıqları ilə "700 min ağac əkək" kampaniyası çərçivəsində növbəti ağacəkmə aksiyası keçirilib. Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Yeni Azərbaycan Partiyasının birgə layihəsi olan ağacəkmə kampaniyası çərçivəsində keçirilən aksiya Yevlax rayonunun ərazisində yerləşən meşə zolağında müxtəlif növ yaşıllıqların - ümumilikdə 8700-ə qədər ağacların və dekorativ kolların əkilməsi ilə davam etdirilib.





Kampaniyada YAP Yevlax və YAP Mingəçevir şəhər təşkilatlarının idarə heyətlərinin, rayon gənclər birliyinin üzvləri, partiya fəalları, ziyalılar, ictimaiyyət nümayəndələri yaxından iştirak ediblər. Bayram əhval-ruhiyyəsi ilə keçirilən ağacəkmə aksiyasında YAP fəallarının iştirakı ilə 3200-dən çox göyrüş və meliya ağacları əkilərək təbiətə bəxş edilib. Əkilən ağaclara aqrotexniki qulluq olunub. Ağacəkmə aksiyası zamanı bildirilib ki, bu kimi mühüm kampaniyanın reallaşdırılması Aran regionunda yaşıllığın genişləndirilməsinə və ekoloji vəziyyətin daha da yaxşılaşdırılmasına töhfə verəcək.

*Rövşən NURƏDDİNOĞLU*

## YAP Pirallahı rayon təşkilatında ərazi ilk partiya təşkilat sədrləri ilə görüş keçirilib



Dünən Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov ərazi ilk partiya təşkilat sədrləri ilə görüş keçirib. Hikmət Şikarov ilk öncə toplantı iştirakçılarını salamlayaraq, Yeni Azərbaycan Partiyasının təkcə ölkənin deyil, regionun aparıcı siyasi təşkilat olmasından, ölkədə keçirilən bütün seçki proseslərində Yeni Azərbaycan Partiyasının qələbəsinin onun monolit partiya olması ilə əlaqələndirərək, partiyanın siyasi kursunun əsas aspektlərindən, rayon təşkilatının qarşısında duran vəzifələrindən danışıb. O, ərazi ilk partiya təşkilatlarında işin günün tələbləri səviyyəsində qurulması, nümunəvi və zəif ərazi ilk partiya təşkilatları, iki ərazi ilk partiya təşkilatında sədrlərin dəyişdirilməsi posesini, ərazi ilk partiya təşkilatlarında maarifləndirici təbliğat tədbirlərinin gücləndirilməsinin vacibliyini toplantı iştirakçılarının diqqətinə çatdırıb.



Sonda Hikmət Şikarov YAP-a yeni üzv olmuş şəxslərə partiyanın üzvlük vəsiqələrini təqdim etmiş, Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının daim rayonun iqtisadi inkişafını sürətləndirmək və sosial islahatlar yolu ilə vətəndaşlara layiqli həyat şəraiti yaratmaq, rayonda əmək və ictimai fəallığı artırmaq, ictimai-siyasi sabitliyi qoruyub-saxlamaq, insanlara sağlam həyat tərzi aşılamaq üçün fəal məqsədyönlü şəkildə sosial siyasət apardığını, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illiyi və AXC-nin yaranmasının 100 illiyi münasibəti ilə keçirilən silsilə tədbirlərdə aktiv iştirak etməyi tövsiyə edib.

*Rövşən RƏSULOV*

## "Ümummilli Lider Heydər Əliyev-95"

*Biləsuvarda bu şüar altında futzal yarışları keçirilib*

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibəti ilə Biləsuvar rayon gənclər və idman idarəsi və Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatı aprel ayının 18-də məktəblilər arasında futzal üzrə yarışlara start verib, aprelin 25-də isə həmin yarışa yekun vurulub.



Yarışların bağlanış mərasimində YAP Biləsuvar rayonun aparat rəhbəri Əjdər Niftiyev rayon gənclər və idman idarəsinin rəis müavini Elşən Süleymanov, Dövrüşli kənd tam orta məktəbinin direktoru Fizuli Məmmədov və başqaları çıxış edərək, ölkə rəhbərliyi tərəfindən Azərbaycan idmanına olan böyük qayğıdan söz açıblar. Çıxış edənlər bildirdilər ki, Ulu Öndər Heydər Əliyevin idmana və idmançılara göstərdiyi qayğı bu gün də ölkə Prezidenti, Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Yarışlarda birinci, ikinci və üçüncü yeri tutan komandalar gənclər və idman idarəsi, eyni zamanda YAP Biləsuvar rayon təşkilatı tərəfindən diplom və fəxri fərmanlarla mükafatlandırılıblar.

*Afət TAHİRQIZI*

## OPEC-in baş katibi Məhəmməd Barkindo Azərbaycana gələcək



Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Sanusi Barkindo Azərbaycana gələcək. Xəbərdə deyilir ki, OPEC-in baş katibi mayın 30-31-də Bakıda keçiriləcək Beynəlxalq "Caspian Oil & Gas" konfransında iştirak edəcək.

M.Barkindo "Caspian Oil & Gas" konfransının "Neft və qaz sənayesində qlobal və iqtisadi perspektivlər - neftin qiyməti və böhran şəraitində mövcud olan imkanlar" adlı plenar sessiyada məruzəçi qismində çıxış edəcək. Həmin sessiyada Qaz İxrac Edən Ölkələrin Forumunun (GECF) baş katibi Yuriy Sentyurin, Səudiyyə Ərəbistanının milli neft şirkəti "Saudi Aramco"nun vitse-prezidenti İbrahim Assaden və Azərbaycanın energetika naziri Pərviz Şahbazovun məruzələri dinləniləcək.

# Qərbin sosial şəbəkə oyunbazlığı

*Bu oyunlar Azərbaycanda keçməyib və keçməyəcək də...*

***Artıq on ildən çoxdur ki, dünyada bir-birini əvəzləyən və mütəmadi şəkildə gündəmləri zəbt edən bir çox olaylar yaşanan proseslərin gerçək üzünü ortaya çıxarmaqdadır. Xüsusilə, internet resurslarının inkişafı dövrünə təsadüf edən hadisələrin hər birinin arxasından Qərbin çıxması isə bir sıra suallar doğurur. Bu isə belə deməyə əsas verir ki, zaman-zaman dünyaya özünə sərf edən "demokratiya" ixrac edən qoca Qərb öz müstəvisində buna dözümsüzlük göstərir. Qərbin özündə elə hadisələr baş qaldırır ki, bunun qarşısı zor gücünə, polis vəhşiliyi və s. qeyri-insani yollarla alınır. Buna misal kimi, təkcə son 10 ildə ABŞ-da, Böyük Britaniyada, Fransada, Almaniyada İspaniyada və s. Qərb ölkələrində baş verən hadisələri xatırlatmaq mümkündür.***




Maraqlısı isə odur ki, "demokratiyanın beşiyi" hesab edilən və sosial şəbəkələrin dəstəkçisi olan Qərb, bu dəfə məhz özləri tərəfindən yaradılmış sosial şəbəkələrin hədəfinə çevrilərək, necə deyərlər, onun "xeyrini" görməyə başlayıblar.

Halbuki, tarixə "ərəb baharı" kimi düşən qanlı-qadalı hadisələr, yüz minlərlə insanların ölümünə, qəddarlığına səbəb olan Qərb "demokratiyası"nın ixracatçı başbilənləri bu gün də eyni baxışdan çıxış edirlər. Ancaq unudurlar ki, İngiltərədə baş vermiş Tottenhem olayları dünya ictimaiyyətinin yadından çıxmayıb. Misal üçün xatırlada bilərik ki, 2011-ci ilin avqustunda Mark Duqqan adlı qaradərili ingilis gənci Tottenhem şəhərində polis tərəfindən öldürülmüşdü və bu hadisə kütləvi etirazlara səbəb olmuşdu. Qısa zaman içində Tottenhemdən qığılcım götürərək, London da daxil olmaqla, digər şəhərlərə qədər sürətlə yayılan iğtişaşlarda minlərlə mağaza soyuldu və qarət edildi, minlərlə insan ciddi xəsarət aldı. Qərb mətbuatının yaydığı məlumatlara görə, hadisələr zamanı 5 adam ölmüş, 3 mindən çox adam həbs olunmuşdu. Həbs edilənlərdən 1000 nəfəri cəza almış, bir o qədəri də axtarışa verilərək sonradan həbsxanalara atılmışdı. Maddi zərər isə 200 milyon dolları keçmişdi. Eyni zamanda, 200-ə yaxın polis məmuru müxtəlif dərəcəli ağır bədən xəsarətləri almışdı.

Yeri gəlmişkən, bu gün Azərbaycana qarşı da heç bir əsası olmayan ittihamlarla çıxış edən, guya internet azadlığına məhdudiyyətlərin qoyulduğunu iddia edən bir sıra Qərb siyasi dairələri unudurlar ki, təkcə Tottenhem hadisələrindən sonra Britaniya hökuməti 4 gün (!!!-R.N.) ərzində bütün sosial şəbəkələrə çıxışları dayandırmışdı. Öldürülən qaradərili Mark Duqqan üçün "R. I. P. Mark Duggan" adı ilə "Facebook" səhifəsi açıldı və səhifənin qısa müddətdə minlərlə dəstəkçisi oldu. Nəticədə isə bu səhifədə paylaşılan mesajlar ingilis polisinə qarşı "qisas" adı altında yayımlandı. Sonra isə "qisasın" yerini küçə nümayişləri, onun ardınca isə, talan və qarətlər, lap sonda isə anarxiyaçılıq əvəz etdi. Daha sonra bu istiqamətdə müəyyən qədər irəliyə gedərək, iğtişaşçıların koordinasiya rolunu oynayan sosial şəbəkələri ölkə ərazisində bağlamaq barədə müzakirələr aparıldı və 4 gün sosial şəbəkələrinin fəaliyyəti tamamilə dayandı. Özü də ingilis hökuməti bunu sosial şəbəkələrin rəhbərlərinə müraciət edərək həyata keçirdilər. Şəbəkə rəhbərləri isə hökumətin bu çağırışını məmnunluqla qəbul etdilər.

Bənzər hadisə ABŞ-da da baş vermiş və qaradərili gəncin öldürülməsi kütləvi iğtişaşlara, həbslərə, hətta polis tərəfindən jurnalistlərin təqibinə səbəb olmuşdu. Bu hadisədən öncə isə "Çikaqonu zəbt et" şüarı ABŞ şəhərlərini bürümüşdü, Amerika "demokratiyasının" iç üzü ifşa olunmuşdu. Bu ölkənin ayrı-ayrı ştatlarında sosial şəbəkələrə giriş qadağası bir neçə müddət boyunca tətbiq edilmişdi.

Beləliklə, hadisələrin bu qədər sürətlə yayılmasına, vəziyyətin bu qədər acınacaqlı həddə çatmasına təbii ki, ərəb ölkələrində baş verən inqilablar, iğtişaşlar "törədən" "Facebook" , "Twitter" və bu kimi digər sosial şəbəkələr səbəb olmuşdu desək, heç də yanılmarıq.

Yeri gəlmişkən, hətta sosial şəbəkələri belə, öz qaranlıq siyasətlərinə vasitə edən Qərb dairələrinin internet missionerləri Ərəbistana, eləcə də keçmiş post-sovet ölkələrinə gedərək, insanlara "Facebook" və "Twitter"in istifadəsi mövzusunda "təlimlər" keçirdilər. Bu təlimlərin təsiri isə özünü çox gözlətmir. Misal üçün, Tunisdən başlayan şəbəkə inqilabları, daha sonra digərlərinə - Liviyaya, Suriyaya, İraqa, Yəmənə, Bəhreynə və s. ərəb ölkələrinə keçdi. Demək ki, ortada ikili standartlar mövcuddur və bu standartlar Qərb siyasi dairələri tərəfindən istənilən şəkildə müəyyənləşdirilir.

Söz yox ki, həmin dairələr zaman-zaman müstəqil və qətiyyətli siyasət yürüdülən Azərbaycana da diş atmağa çalışıblar. Bu kimi hadisələr Azərbaycanda da göstərilməyə cəhd edildikdə, istər dağıdıcı ölkə müxalifəti, istərsə də bir sıra Qərb dairələri tamamilə fərqli münasibət göstərirlər, demokratiyanın, insan hüquqlarının pozulması kimi qiymətləndirirlər.

Onu da vurğulayaq ki, Qərb siyasətinin ikili standartları dəfələrlə Azərbaycana da tətbiq edilib. Belə ki, müxalifətin dağıdıcı qanadının hələ 2010-2012-ci illərdə müxtəlif adda, yeni sifarişlərlə keçirdikləri icazəsiz aksiyaları zamanı, insanların asayişinin, rahatlığının, istirahətinin pozulduğu üçün dövlət tərəfindən qanunsuz hərəkətlərin alınmasını "anti-demokratik" addım kimi qiymətləndirdilər. Halbuki həmin aksiyalar zamanı onlarla avtomobillərə, mağazalara, iaşə obyektlərinə, ofislərə külli miqdarda maddi ziyan dəymişdi.

Digər maraqlı məqam Azərbaycan hakimiyyətinin radikallara icazəli mitinqlər, toplantılar keçirmək üçün münasif yerlər ayırdıqdan sonra belə, yenidən Qərb dairələrinin eyni mövqedən ittihamlar irəli sürməsidir. Buna isə açıq-aşkar siyasi həyasızlıq, hətta siyasi fahişəlik deyirlər. Bu əsnada bir çoxları belə bir sual edirlər: bəs, görəsən Qərb öz daxilində baş verənləri görmürmü? Təbii ki, ikili standartların olduğu yerdə bu sualın verilməsi heç də düzgün sayılmaz. Çünki ikili standart olan yerdə düzgünlük, dürüstlük və ədalətli mövqenin olması qətiyyən mümkün deyil.

Qaldı ki, "söyüş müxalifəti"nin bəlli əməllərinə, çox yəqin ki, insanların ailələrinə, şəxsiyyətlərinə qarşı tərbiyəsizlik edənlər bu əməllərinə görə cavablarını alacaqlar. Yəqin ki, onda da ikili standartlara sadiqliyini nümayiş etdirən qərbli başbilənlər yenidən yaxa-başlarını yırtaraq, "demokratiya" deyib, diş qıcıdacaqlar. Amma qıcanan dişlərin də fəsada uğrayıb qırılan zamanı olacaq. Gec, ya da tez...

***Rövşən RƏSULOV***

## Direktor və müəllimlərin işə qəbulu qaydalarında yenilik olacaq

"Bu il məktəb direktorlarının və müəllimlərin işə qəbulu qaydalarında yeniliklər olacaq". SİA-nın xəbərinə görə, bunu Təhsil Nazirliyinin İnsan Resursları şöbəsinin müdir müavini Eşqi Bağırov bildirib. Onun sözlərinə görə, müəllimlərin işə qəbul qaydaları ilə bağlı layihə hazırlanıb, qaydalarda yeniliklərin tətbiqi planlaşdırılır: "Müəllimlərin işə qəbul qaydaları növbəti həftələrdə təsdiq olunacaq. Layihə təsdiqləndikdən sonra əlavə məlumat veriləcək". E. Bağırov qeyd edib ki, bu il məktəb direktorlarının işə qəbulu ilə bağlı müsabiqənin keçirilməsi də nəzərdə tutulub: "Direktorların işə qəbulu qaydalarında da dəyişikliklər ediləcək. Lakin hələlik qaydalar hazır deyil".

## Üç ayda Azərbaycandakı mehmanxanalar 73,1 milyon manat qazanıb

Cari ilin ilk rübündə ölkə üzrə mehmanxanaların gəlirləri 73,1 milyon manat olub. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, bunun 64,5 faizi nömrələrin (otaqların) təqdim olunması üzrə xidmətlərdən, 23,5 faizi içkilər də daxil olmaqla qida məhsullarının satışı üzrə xidmətlərdən, 4,9 faizi müalicə və sağlamlıq xidmətlərindən, 7,1 faizi isə digər xidmətlərin göstərilməsindən əldə edilib. Mehmanxanaların nömrə fondundan istifadə səviyyəsinin orta göstəricisi ölkə üzrə 20 faiz təşkil edib. Bu göstərici Naftalanda 52 faiz, Bakıda 32,1 faiz, Qusarda 24,2 faiz, Qəbələdə 22,9 faiz, Qubada 21,7 faiz, Naxçıvan Muxtar Respublikasında 9,1 faiz, Lənkəranda 7,6 faiz, Şəkidə 6,5 faiz, Şamaxıda 4,2 faiz, Gəncədə 2,8 faiz, Qaxda 2,5 faiz, digər şəhər və rayonlarda isə 2,5 faizdən aşağı olub.

## Dünya Bankı: Bu il neftin qiyməti 68 dollar/barrel olacaq




Dünya Bankı ("World Bank") neftin qiymətinə dair proqnozunu artırıb. AZƏRTAC banka istinadla xəbər verir ki, proqnozun artmasına səbəb kimi güclü tələbat artımı, eləcə də Neft İxrac edən Ölkələr Təşkilatına (OPEC) üzv və bəzi qeyri-OPEC ölkələrlə əldə olunan neft hasilatının azaldılması üzrə saziş göstərilir. Neft, təbii qaz və kömür daxil olmaqla enerji məhsullarının qiymətinin 2018-ci ildə 20 faiz artacağı nəzərdə tutulur. Bankın ötən il üzrə neftin qiymətinə dair proqnozu isə 53 dollar/barrel idi.

## "Nar"-dan autizmli uşaqlara dəstək aksiyası

***"Nar" özünün korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində daha bir sosial aksiyaya imza atdı. Autizmdən əziyyət çəkən uşaqlara dəstək olmağa qərar verən mobil operator bu çərçivədə "Nur" korreksiyaedici mərkəzlə əməkdaşlığa başladı. Belə ki, 23-27 aprel 2018-ci il tarixləri arasında qardaş Türkiyə Cümhuriyyətinin Alanya şəhərində keçiriləcək ANCA Dünya Autizm Festivalında "Nur" korreksiyaedici mərkəzdə müalicə alan 3 autizmli uşaq və 4 pedaqoqun iştirakı mobil operator tərəfindən təmin edildi.***



ANCA Dünya Autizm Festivalı ilk dəfə 1995-ci ildə Kanadada keçirilib. Festival hər il müxtəlif ölkələrdə təşkil edilir. Bu il festivalda 35 ölkənin iştirakı gözlənilir. Azərbaycanı bu festivalda məhz "Nur" korreksiyaedici mərkəz təmsil edəcəkdir. "Nur" korreksiyaedici mərkəzdə defektoloq, loqoped, psixoloq, müalicəvi idman, yaşam və gimnastika müəllimi, xüsusi pedaqoqlar xidmət göstərirlər. Mərkəzdəki mütəxəssislər Daun sindromu, autizm, əqli inkişafın ləngiməsi, hiperaktivlik, eləcə də digər psixoloji və müxtəlif nitq problemlərinin reabilitasiyası ilə məşğul olurlar.

Festivalda Azərbaycanı təmsil edəcək kollektivin səfər xərclərini öz üzərinə götürən "Nar" uşaqların çıxışlarında istifadə edəcəkləri xüsusi paltarlar və milli geyimlər, idman dəstləri, milli rəqs üçün xüsusi müəllimin dəvəti, müxtəlif dillərdə hazırlanmış broşürlər və milli hədiyyələrin təşkili, eləcə də digər logistik xərclərin qarşılanmasını təmin etdi. "Nar" KSM strategiyası haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilmişdir. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilmişdir. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim etmiş və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə vermişdir. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim etmişdir. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# "Reallıq ortadadır"

## Teyyub Qənioğlu: "Xaricdəki "söyüş qrupu" ifşa olunur"



Müsahibimiz Təkamül partiyasının sədri Teyyub Qənioğludur

***- Teyyub bəy, məlumatlara görə, "Milli Şura" təmsilçiləri ölkədə qarışıqlıq salmaq üçün pozucu aktlar törətməyi planlaşdırırlar. Sizcə, nədən onlar sivil mübarizədən imtina edib, məkrli planlara meyil göstərirlər?***

- Bu gün hər kəs, o cümlədən, "Milli Şura" təmsilçiləri də çox gözəl bilirlər ki, onların xalq tərəfindən dəstəyi yoxdur. Bu reallıq ortadadır. Ümumiyyətlə, "Milli Şura"nın pozucu planlar üzərində düşünüb, onu həyata keçirməyi planlaşdırması sonda, hər zaman olduğu kimi, yenə də uğursuzluqla bitəcəkdir. Dəfələrlə mitinqlər yolu il məkrli niyyətlər həyata keçirməyə çalışıblar. Ancaq rüsvayçılıqla üzləşiblər. Yenə də, mitinqlər planlaşdırırlar. Ola bilsin ki, bu mitinqlərə də, özlərinin yaxın qohum-əqrəbalarını cəlb etsinlər və adını da qoysunlar mitinq. Ancaq onlara sual vermək lazımdır ki, sizlər bu cür mitinqlər keçirməklə, nəyə nail olmaq istəyirsiniz? Onlar cavab verə bilməyəcəklər, çünki qüsurludurlar. Reallıq budur ki, onlar bu cür uğursuz aksiyalarla siyasi intiharlarını, cəmiyyətdəki özlərinə olan mənfi münasibəti bir qədər də dərinləşdirmiş olurlar.

***- Müxalifətin "söyüş qrupu" xaricdə oturub Azərbaycan əleyhinə anti-təbliğat kampaniyası aparır. Demək olarmı onları təlimatlandıranlar sırasında, erməni lobbisi də var?***

- Xaricdə mühacir həyatı yaşayan bəzi şəxslərin Azərbaycan dövləti haqqında ağızlarına gələni danışmaları və yazmaları onlara heç vaxt baş ucalığı gətirməyəcək. Demək olar ki, bu gün Azərbaycanı istəməyən xarici qüvvələr var ki, onlar Azərbaycan dövlətinin əldə etdiyi uğurlara kölgə salmaq istəyirlər. Bunun üçün də xaricdəki şəxslərdən özlərinin məkrli planlarının həyata keçirilməsində bir alət kimi istifadə edirlər. Xaricdəki "söyüş qrupu" isə ifşa olunur. Xarici pozucu qüvvələr düşünürlər ki, belə etməklə onlar Azərbaycanda nə isə bir qarışıqlıq yarada biləcəklər. Amma onların nə planlaşdırmalarından asılı olmayaraq heç vaxt ölkəmizlə bağlı məkrli planlarını həyata keçirə bilməyəcəklər. Çünki xalq xaricdə olan həmin şəxslərin kim olduqlarını və nə etmək istədiklərini onların özlərindən yaxşı bilir. Ümumiyyətlə, xaricdəki şəxslərin söyüşdən istifadə etmələri bir daha sübut edir ki, onlar zəif və heç bir bacarığı olmayan adamlardır. Ataların belə bir məsəli var, "it hürər, karvan keçər". Əlbəttə ki, xarici ölkələrdə olan həmin şəxslərin bu cür hərəkətlərə əl atması birmənalı şəkildə pislənilir. Özləri də yaxşı bilir ki, boş-boş işlərlə məşğul olurlar. Yaxşı olardı ki, onlar xarici qüvvələrin təsiri altına düşməsinlər və öz ölkələri haqqında şər-böhtan xarakterli məlumatlar səsləndirməsinlər. Çünki Azərbaycan sabitlik adasıdır, ölkəmizdə möhkəm əsaslara söykənən stabillik mövcuddur.

***- Demək olarmı, ölkəmizə qarşı məkrli planlar eyni mərkəzdən planlaşdırılır?***

- Təbii ki, bunlar eyni mərkəzdən idarə olunur. Bu şəxslərin xaricdə Azərbaycan haqqında xoşagəlməz fikirlər səsləndirmələri bir daha təsdiq edir ki, onlar eyni mərkəzdən idarə olunurlar. Məqsədləri də, Azərbaycanı beynəlxalq aləmdə gözdən salmaqdır. Amma daha bilmirlər ki, onlar məhz bu cür hərəkətləri ilə özləri-özlərini tamamilə gözdən salırlar.

***GÜLYANƏ***



Təhmasib Novruzov

# Səbrimiz tükənərsə...

***Ötən əsrin 70-ci illərində Avropada çoxsaylı beynəlxalq qurumların sırasına daha bir təşkilat daxil oldu. İlkin dövrdə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müqaviləsi kimi adlandırılan, sonradan Müqavilə sözü Təşkilat sözü ilə əvəzlənərək, ATƏT-ə çevrilən bu qurumun əsas və başlıca missiyası sülhü qorumaq, dövlətlər arasında münaqişəli məsələlərin qan tökülmədən, sülh və anlaşma yolu ilə həllinə yardım etməkdən ibarət olub.***

Azərbaycan da dövlət müstəqilliyini əldə etdikdən dərhal sonra Dağlıq Qarabağ düyününün həllinə bu təşkilatı cəlb etdi. O zaman hamıda belə bir inam var idi ki, ölkələrin ərazi bütövlüyünün toxunulmazlığını fəaliyyətinin əsas prinsiplərindən biri kimi bəyan edən bu qurum, tezliklə problemin ədalətli həllində ciddi addımlar atacaq. Təcili Minskdə bir toplantı keçirib Minsk Qrupunun yaradılması da bu inamı xeyli artırmışdı. Sonra Minsk Qrupunun bir sədri olması problemin həllində əhəmiyyətli addımlar atılmasını təmin etmədiyini əsas gətirib, həmsədrlik institutu yaratmağa qərar verdilər. Dünyanın üç ən güclü, BMT TŞ-nın üzvü olan dövləti - ABŞ, Rusiya və Fransa həmsədr oldular. Yenə hesab etdik ki, bu ölkələr problemin tezliklə həllinə nail olacaqlar. Beləcə iyirmi ildən çoxdur ki, həmsədrlər Qafqaza "turist" səfərlərinə start verdilər. Hamının bildiyi bu həqiqəti boşuna xatırlatmadım. Zaman-zaman müxtəlif üsullarla Azərbaycanı təsiri altına salıb, Dağlıq Qarabağ düyününü erməni lobbisinin istəyinə uyğun həll etmək siyasəti yürüdən müəyyən anti-Azərbaycan qüvvələr, görünən odur ki, bu quruma da təsir mexanizmi tapa biliblər. Belə olmasaydı, ötən əsrin əvvəllərində xalqımızın başbilənlərinin sülhsevər məramından yararlanıb, Azərbaycan torpaqları hesabına özünə dövlət quran, bütün qeyri-erməni millətləri bu torpaqlardan qovub da təkmillətli dövlət quran, ötən əsr ərzində milyonlarla azərbaycanlını keçmiş Sovet rəhbərliyinin dəstəyi ilə dədə-baba yurdundan qovub çıxaran, Azərbaycanın beynəlxalq aləmdə tanınmış ərazisinin 20 faizini işğal edən, bir milyondan artıq insanı öz ölkəsində didərgin salan, Xocalı, Qaradağlı kimi soyqırımı törədən, BMT-nin məlum dörd Qətnaməsini, AŞ-ın, ATƏT-in, Aİ-nin, İKT-nin və digər nüfuzlu beynəlxalq təşkilatların qərarlarını heçə sayan Ermənistana bu əməlləri qarşılığında siyasi, hüquqi, iqtisadi sanksiyalar bir yana, heç olmazsa, diplomatik təsir variantlarından istifadə edərdilər. Hətta XX əsrin ən qanlı faciəsi olan Xocalı qətliamının törədilməsində iştirak etdiyini yüksək tribunalardan fəxrlə deyən bir canini prezident kimi qəbul edib, onunla danışıqlar aparıb və onu "yola gətirməyə" guya ki, cəhd edirdilər. Axır ki, erməni millətinin özünün səbr kasası doldu və cani prezidenti bayıra atmağa özlərində təpər tapa bildilər. Kim nə deyir desin, mənim fikrimə görə, hakimiyyətə gələcək yeni qüvvənin də Dağlıq Qarabağ məsələsində mövqeyi Köçəryan-Sarkisyan klanından fərqlənməyəcək. Çünki bu ölkədə belə qlobal məsələləri ölkəni idarə edənlər deyil, xarici ağaları, bir də Erməni kilsəsi həll edir. Belədə problemin çözülməsində hansısa irəliləyiş gözləmək sadəlövhlük olardı. Amma beynəlxalq qurumlar, xüsusən də, problemin çözülməsi missiyasını üzərinə götürən ATƏT, onun Minsk Qrupu və həmsədrlər ən azı yeni hakimiyyətlə diplomatik danışıqlarında ciddi dəyişiklik etməlidirlər. Əlbəttə, yuxarıda da qeyd etdiyimiz kimi, əgər pərdəarxası maraqların bir yana qoyub, nəhayət ki, problemin həllini həqiqətən istəyirlərsə!.. Yox, əgər yenə problemin həll olunmamasında iki ölkənin hakimiyyətlərinin razılığa gəlməməsini (?...) əsas gətirəcəklərsə, bu qrupdan və bu həmsədrlərdən nəsə gözləməyinə dəymaz. O zaman bu ədalətsizliyə dözmək səbri tükənən Azərbaycan xalqının savaşa atılmaqdan başqa çarəsi qalmır. Belədə tökülləcək qanın məsuliyyətinin böyük bir qismi məhz ATƏT-in, onun Misk Qrupunun və həmsədrlərin üzərində qalacaq. Bu qrupun dünyada gedən siyasi prosesləri yönləndirmək gücündə olan həmsədrləri, ən azı özlərinin nüfuzları naminə bu həqiqəti qəbul etməli və nəhayət ki, Ermənistanın tutduğu neofaşizm yolundan çəkinməsi, haqqın yoluna gəlməsi üçün məcburedici tədbirlərə əl atmalıdırlar. Dünya Azərbaycan xalqının, ölkə başçısı, Ali Baş Komandanın bir əmrinə bənd olduğunu bilməli və belə bir əmr olarsa, nələr baş verəcəyini hesablamalıdır!..

# Qaymaq və pendir qutularında gizlədilən heroin aşkara çıxarıldı



Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin əməkdaşları külli miqdarda narkotik vasitənin gömrük sərhədindən gömrük nəzarətindən gizli keçirilməsi cəhdinin qarşısını alıblar. DGK-dan SİA-ya verilən məlumata görə, Tehran-Bakı aviareysilə gələn Azərbaycan vətəndaşı İsgəndərov Arif Zərqulu oğlu gömrük nəzarətindən keçərkən onun əl yükü rentgen aparatında yoxlanılıb. Bu zaman monitorda əks olunan təsvirlər gömrük nəzarətindən gizlədilmiş malların olması barədə əsaslı şübhələr yaradıb.

Bu səbəbdən yükün içərisindəki ərzaq mallarının arasında olan ağzı yapışqanla bağlı 3 ədəd qaymaq və 1 ədəd pendir qutularına vizual baxış keçirilib. Nəticədə, qutuların hər birində kəskin iyə malik, qəhvəyi rəngli, islanmış vəziyyətdə olan narkotik vasitəyə oxşar maddə aşkar edilib. Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin arayışına əsasən, cəmi dörd qutuda aşkar olunan maddələr tiryəkdən kustar üsulla hazırlanmış narkotik vasitə - heroindir və ümumi təmiz çəkisi 1 kq 20 qram təşkil edir.

# Siyəzəndə kanaldan qadın meyiti tapılıb



Siyəzəndə kanalda qadın meyiti tapılıb. FHN-dən SİA-ya verilən məlumata görə, Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə rayonun Ağbaş kəndi ərazisində 1 nəfərin Samur-Abşeron kanalına düşməsi barədə məlumat daxil olub. Hadisə yerinə cəlb olunmuş Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcimli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-axtarış qrupu tərəfindən aşkarlanan qadın meyiti (şəxsiyyəti məlum deyil) sudan çıxarılaraq aidiyyəti üzrə təhvil verilib. Əməliyyat başa çatıb.

# Mənzildən 5 min manatlıq qızıl əşyalar oğurlayan şəxs tutuldu



Nəsimi rayonu ərazisindəki mənzillərin birindən qızıl əşyalar oğurlamaqda şübhəli bilinən Şamo Babayev saxlanılıb. DİN-dən SİA-ya verilən məlumata görə, Nəsimi RPİ 21-ci PB əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində saxlanılan İmişli rayon sakini Ş.Babayev aprelin 24-də rayondakı mənzillərin birindən 5000 manat dəyərində qızıl əşyalar oğurlamaqda şübhəli bilinir.

# Cənubi Koreyada mədəndə partlayış: ölən və yaralananlar var

Cənubi Koreyanın şimal-şərqindəki Ceonqseon şəhərindəki dəmir mədənində partlayış baş verib. Nəticədə ən azı 3 fəhlə ölüb, digər 3-ü yaralanıb. AZƏRTAC yerli KİV-lərə istinadla xəbər verir ki, hadisə özəl şirkətə məxsus mədəndə yerli vaxtla saat 15:55-də (Bakı vaxtı ilə 10:55) baş verib. Mədəndə iş prosesi davam edərkən baş verən partlayış nəticəsində 6 nəfər dağıntı altında qalıb. İndiyədək onlardan 3-nün cəsədi tapılıb.

# May ayı üçün qeyri-iş günlərinin sayı açıqlandı



May ayında 2 qeyri-iş günü olacaq. Belə ki, Əmək Məcəlləsinin 105-ci maddəsinin 2-ci hissəsinə əsasən, 9 May - Faşizm üzərində Qələbə günü və 28 May - Respublika günü iş günləri hesab edilmir. Bu barədə SİA-ya Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən məlumat verib. Məlumata görə, 9 May- Faşizm üzərində Qələbə günü çərşənbə gününə təsadüf edir və qeyri-iş günüdür. 28 May - Respublika günü isə bazar ertəsinə düşdüyündən həmin gün qeyri-iş günü olması ilə yanaşı, bu, eyni zamanda, beşgünlük iş həftəsi üzrə işləyənlərin üç gün (şənbə, bazar və bayram günü olan bazar ertəsi) ardıcıl olaraq istirahət etməsinə imkan verəcək.

Bildirilib ki, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin Kollegiyasının müvafiq qərarı ilə təsdiq edilmiş "2018-ci ilin istehsalat təqvimi"nə əsasən, 2018-ci ilin may ayı üzrə aylıq iş vaxtı norması 167 saat, 2018-ci il üçün illik iş vaxtı norması isə 1 919 saatdır. Bu norma altıgünlük iş həftəsi olan iş yerlərində 40 saatlıq iş həftəsi üzrə çalışanlara da şamil edilir.

# Özünüifadə azadlığı və senzuraya qarşı mübarizə tarixindən

***Cəmiyyət və dövlətdən çəkinməyərək öz fikrini ifadə etmək hüququ - özünüifadə azadlığı, ümumi fikrə görə, insan haqlarının ən mühümü və vətəndaşın dövlətin idarə olunması və ona nəzarət edilməsində həqiqi iştirakının əsasıdır. "Özünüifadə azadlığı anlayışı" tarixən vicdan və dini fəaliyyət azadlığı, söz və mətbuat azadlığı, sərbəst toplaşmaq və hökumətə şikayət və tələblərlə müraciət etmək hüququnu ehtiva etmişdir.***

Yadfikirliliyin təqib olunması dünyanın özü qədər qədim tarixə malikdir. Sokrat, Nəsimi, Tomas Mor, Qalileo Qaliley və minlərcə digər intellektual öz fikirlərini azad şəkildə ifadə etməyə cəhd göstərdiklərinə görə hər şeyə qadir olan cəmiyyət, yaxud dövlət tərəfindən cəzalandırılmışlar. 16-cı əsrdən başlayaraq kitab çapının sürətlə inkişafı ilə bağlı 1637-ci ildə İngiltərədə kral hökuməti mətbuatda ilkin senzura qoydu. Elə həmin ildə ingilis yazıçısı Uilyam Prinn müəllifi olduğu kitaba görə ömürlük həbs cəzasına məhkum edildi. Onun günahı bu kitabda kraliçaya böhtan atmaqdan ibarət idi. Əlavə cəza kimi onun hətta qulaqlarını da kəsdilər.

Ozünüifadə azadlığı uğrunda fəal mübarizə İngiltərə inqilabı dövründə (17-ci əsr) başlanmışdır. Bu vaxt mübarizəyə həm dini və siyasi xadimlər, həm də elm və incəsənət nümayəndələri qoşulmuşlar. Bu mübarizədə ingilis şairi Con Milton (1608-1674) da fəal iştirak etmişdir. Con Milton bu gün İngiltərədə Vilyam Şekspirdən sonra ikinci böyük şair hesab olunur. O, bizdə "İtirilmiş cənnət" poeması ilə məşhurdur. Con Miltonun ictimai və siyasi fəaliyyəti haqqında məlumatımız daha azdır. O, bütün dünyada insan haqları uğrunda mübarizəyə qalxmış ən məşhur incəsənət nümayəndəsi kimi tanınır.

Parlamenti böyük inamla müdafiə edən Milton İngiltərə inqilabının, demokratiya və mənəvi yeniləşmə uğrunda hərəkatın intellektual liderlərindən birinə çevrilmişdi. O çoxsaylı esse və pamfletlərində kralın yaratdığı yepiskop kilsəsinə qarşı çıxır, vicdan və söz azadlığını, boşanma hüququnu, təhsildə demokratik islahatları müdafiə edirdi.

Con Milton parlament qarşısında mətbuat azadlığı haqqındakı məşhur nitqində deyirdi: "Mənə hər cür azadlıqlardan əvvəl bilmək, danışmaq və öz məsləyinə uyğun olaraq sərbəst fikir yürütmək azadlığı verin".

Əslinə qalsa, bu barədə gərək mən özüm danışmayaydım, lakin əminəm ki, əgər burada hamı öz ölkəsini azad görmək naminə sidq ürəkdən birləşmişsə, məni də heç kəs məzəmmət etməz; o zaman mənim fərzolunan nitqim azadlıq töhfəsi olmasa da, hər halda, həqiqətin səsi olar. Biz ölkədə heç vaxt heç bir çətinliyin ola bilməyəcəyi bir azadlıq arzusunda deyilik; bunu heç kəs arzulaya bilməz; lakin narazılıqlar azad surətdə dinlənilib, diqqətlə nəzərdən keçirilib tez bir zamanda həll edilirsə, o zaman ağıllı adamın yalnız arzu edə biləcəyi vətəndaş azadlığının son həddi əldə edilmiş olar. Elə mənim bu cür danışmaq imkanımın olmasından bu nəticəyə gəlirəm ki, biz artıq həmin vəziyyətə xeyli yaxınlaşmışıq: "Lordlar və icmalar, siz özünüzə xas olan ehtiyatkarlıqla ağıllı məsləhətə qulaq assanız və bu məsləhətin haradan qulağınıza çatmasından asılı olmayaraq ona əməl etsəniz və sonra özünüzün təyin etdiyiniz qanunu, eləcə də sələflərinizin qoyduqları qanunu eyni həvəslə ləğv etsəniz, onlardan üstün olduğunuzu tam sübuta yetirmiş olarsınız.

Kitablar cansız əşyalara tamamilə aid edilə bilməz: onlarda həyat gücü var və bu güc həmin kitabları yaratmış ruhun özü kimi təzahür və hərəkət edir; bu kitablarda, hətta bundan da artığı - sanki qabın içindəymiş kimi xalis mənbə başlanğıc, onları yaratmış canlı zəkanın cövhəri bulunur. Mən yaxşı bilirəm ki, onlar mifologiyada danışılan əjdahanın dişləri kimi davamlı və bərəkətlidir: bu toxumlardan asanlıqla silahlı adamlar cücərə bilər. Lakin digər tərəfdən, kifayət qədər ehtiyatla hərəkət etməmək üzündən yaxşı kitabı öldürmək yaxşı adamı öldürmək kimi bir şeydir; insanı öldürən kəs Tanrı mislində olan şüurlu canlını öldürmüş olur; yaxşı kitabı məhv edən şəxs isə Tanrının doğruçu, həqiqi mislində olan zəkanın özünü öldürmüş olur.

C.Milton senzuranın ləğvini və mətbuat azadlığının bərqərar olmasını istəyirdi: "Əgər biz mətbuatda məlum qayda-qanun yaratmaq istəyiriksə, bütün başqa insan zövqlərini və əyləncələrini də həmin məlum qayda-qanun yaratmaq istəyiriksə, bütün başqa insan zövqlərini və əyləncələrini də həmin məlum qayda-qanunlara tabe etdirməliyik. Əgər onlar ciddi və təntənəli deyilsə, heç bir musiqi pyes ifadə edilməməli, heç bir mahnı oxunmamalıdır. Beləcə, rəqslər də nəzarət altında saxlanılmalıdır ki, cavanlar bəyənilməmiş hansısa jesti, hərəkəti və ya hansısa ünsiyyət vasitəsini öyrənə bilməsinlər; Platon gərək mütləq bunların da qayğısına qalaydı. Azı iyirmi senzorun gərgin zəhməti gərəkdir ki, hər bir evdəki bütün lyutnyalar, skripkalar və gitaralar öyrənilib təhqiq edilsin; əslinə qalsa, o zaman bu alətləri dinc buraxmaq da olmaz: bu alətlərdə çalınması mümkün olanları xəlvətcə dinləmək gərəkdir.

Bəs hər iki cinsdən olan gənclərin söhbətlərini kim izləyəcək? Kim qayda qoyacaqdır ki, nəyi danışmaq olar, nəyi yox? Nəhayət, kef məclislərini kim qadağan edəcək və buna yol verməyəcək? Bütün bunlar mütləq və labüd şəkildə mövcud olmalıdır və hər bir ağlı başında olan hökumətin əsl müdrikliyi məhz bundadır ki, bunlar mümkün qədər azziyanlı və azəxlaqsız etsin.

Senzuranın vurduğu ziyandan bəhs edən Con Milton deyirdi:

Senzor idarəsinin heç bir fayda gətirmədiyini sübuta yetirdikdən sonra mən onun vurduğu ziyana keçmək istəyirəm ki, bu ziyan da, hər şeydən əvvəl, ondan ibarətdir ki, senzura elmə və elm adamlarına qarşı edilə biləcək ən ağır zorakılığın və təhqirin təmsilçisidir. Bilin və agah olun ki, qəyyumsuz və nəzarətçisiz öz fikrini mətbuata tapşırmağa qabil olmadığını və bu zaman guya nəzarətsizlik səbəbindən küfr və əxlaqsızlığı yaya biləcəyini heç nəylə göstərməyən, elm sahəsində adsan qazanmış şəxsin ağlına və namusuna bu qədər inamsızlıqla yanaşmaq azad və ziyalı şəxsin uğraya biləcəyi ən dəhşətli təhqir və ən dəhşətli ədalətsizlikdir.

Bəs fikir sarıdan zəngin müəllif senzuradan sonra - kitab artıq çapda ikən ora nəsə əlavə etmək istəsə necə olsun? Axı ən ehtiyatcıl yazıçılarda da belə hallar çox, bəzən hər əsərdə bir neçə dəfə olur. Çapçı senzura nüsxəsinə bir söz belə əlavə etməyə ürək eləmir; buna görə müəllif yenə öz "hakiminin hüzuruna" getməli olur ki, o əlavələri də nəzərdən keçirsin. Və beləcə, müəllif senzoru işdən azad tapana qədər dönə-dönə onun yanına ayaq döyməli olur, bu vaxt çap işi dayanır ki, bu da bəzən artıq xərcə səbəb olur və ya müəllif ən parlaq fikirlərdən imtina edib kitabı yarımçıq şəkildə çap etdirməyə məcbur olur ki, bu da zəhmətsevər yazıçı üçün dünyada ən böyük dərd və əzab deməkdir.

Belə bir halda başqalarını öyrətmək üçün zəruri olan hansı nüfuz gücündən danışmaq olar? Müəllifin öyrətdiyi, ifadə etdiyi bütün şeylərin nəzarət altında olduğu, onun mühafizəkar senzorun düzəlişlərinə məruz qaldığı, yaxud bu senzorun ani əhval-ruhiyyəsindən asılı olaraq xoşuna gəlmədiyi şeyləri tamam poza və ya dəyişə biləcəyi bir vəziyyətdə müəllif özünü qələmə aldığı kitabın sahibi hesab edə bilərmi? (Bu isə çox zəruridir, çünki əks halda susmaq yaxşıdır).

Hərgah, lordlar və icmalar, kimsə sizi senzuranın elmlə məşğul olan insanları güc və gümrahlıqdan məhrum etməsi barədəki fikirlərin, guya ritorikadan başqa bir şey olmadığına və guya əsl həqiqətdə belə şeyin yoxluğuna inandırmağa çalışsa, mən bu cür inkvizisiya tiraniyasının fəaliyyət göstərdiyi ölkələrdə gördüklərimi və eşitdiklərimi həvəslə sizə nağıl edə bilərəm. Mən bu maarifpərvər insanların arasında bulunmaq şərəfinə nail olarkən, onlar fikir azadlığı ölkəsində (onlar İngiltərəni bu cür görürdülər) doğulduğum üçün mənə qibtə edir və elə hey ölkələrində elmin düşdüyü köləlik vəziyyətindən gileylənirdilər. İtalyan dühasının parıltısı artıq sönmüşdür və uzun illərdir ki, bu ölkədə təriflərlə və cəfəngiyyatla dolu kitablardan savayı heç nə yaranmır".

Beləliklə, Milton öz tərəfdarları ilə birlikdə kral hakimiyyətinin 1637-ci ildə qoyduğu ilkin senzuraya qarşı müvəffəqiyyətlə mübarizə aparırdı. 1640-cı il inqilabı kral senzurasını ləğv edir. Lakin ölkədə hakimiyyət parlamentin ixtiyarına keçdikdən sonra Milton parlamentin qərarları ilə 1641, 1642 və 1643-cü illərdə senzuranın bərpa edilməsindən dəhşətə gəlir. Senzura qaydalarını pozanlar ciddi cəzalara - cərimələ və hətta həbsə məruz qalırdılar.

1644-cü ildə Milton parlament qarşısında çıxışı ilə öz silahdaşlarını ölkədə yeni repressiya rejimi yaratmaqdan çəkindirməyə çalışdı, onları bununla bağlı təhlükədən xəbərdar etdi. Milton bildirdi ki, senzura cəmiyyətin inkişafına zərər gətirir, daha çox isə o, azad, yaradıcı insanın ləyaqətini təhqir edir, çünki belə insanlar üçün onların yaradıcılığına nəzarət etməkdən də artıq təhqir yoxdur. Milton senzorları "kitab qatilləri adlandırır, hər bir kitabın qətlə yetirilməsini isə bütöv bir dünyanın məhv edilməsinə bərabər tuturdu. İnsanın hərəkətlərinə bu alçaldıcı nəzarəti rədd edən Milton böyük əminliklə bildirirdi ki, əgər insanlara istənilən problemi azad müzakirə və tədqiq etmək imkanı verilsə, həqiqət istənilən halda özünə yol tapacaqdır.

Miltonun nitqi onun silahdaşlarına təsir etmədi. İlkin senzura özünüifadə azadlığı tərəfdarlarının təzyiqi ilə yalnız şairin ölümündən 20 il sonra - 1694-cü ildə ləğv olundu. Lakin bundan sonra söz azadlığının təqib edilməsi məhkəmələr vasitəsilə davam etdirildi. On səkkizinci və on doqquzuncu əsr İngiltərəsində kim nə istəsə danışa bilərdi, lakin sonra buna görə məhkəmədə cavab verməli idi. O dövrdə Böyük Britaniyada Çexov və Tolstoyun bəzi kitabları "əxlaqi" səbəblərə görə qadağan edilmişdi. Söz azadlığının müdafiəsi haqqında söylədiyi nitqində Milton bildirirdi ki, senzura insanın çoxsahəli mənəvi fəaliyyəti üzərində, hətta texniki baxımdan da həyata keçirə bilməz. Lakin o, burada yanılırdı -mətbuatda ilkin senzuranın şaxələnmiş sistemi tezliklə bütün mədəni dünyaya yayıldı və bir sıra ölkələrdə bu günə qədər qalmaqdadır.

XX əsrin sonlarında Ulu Öndər Heydər Əliyevin Fərmanı ilə Azərbaycanda senzura ləğv edilmişdir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

SƏS
Son səhifə 27 aprel

## Əllərin gigiyenası



Əllərin təmiz yuyulmasının şəxsi gigiyenanın əsasını təşkil etdiyi bir çox elmi araşdırmalar və tədqiqatlarla təsdiq edilib, çünki əksər xəstəliklərin yayılması məhz əllərin natəmizliyi ucbatından baş verir. Xeyli infeksiyalar, eləcə də qrip xəstəliyinin əllərə hopan mikroblar vasitəsilə yayıldığı təsdiq edilib.

AZƏRTAC xəbər verir ki, əllərin gigiyenasına riayət olunmaması bir çox xəstəliklərə yoluxmağa ciddi təhlükə yaradır, xroniki ağırlaşmaya, hətta ölümə də səbəb ola bilər. Pul əskinasları, xüsusilə də köhnə pullar üzərində 200 növə qədər müxtəlif infeksion, dəri-zöhrəvi xəstəlikləri, o cümlədən vərəm mikrobakteriyalarının, dizenteriya, A hepatiti virusları və digər xəstəliklərin daşıyıcısı ola bilər. Bir ölkədən digərinə aparılan əskinaslar isə daha təhlükəlidir.

Amerika alimləri müəyyən ediblər ki, əskinasların 94 faizi 93 növ patogen bakteriya daşıyıcısıdır. Təhlükəyə, ilk növbədə, immuniteti zəif olanlar, uşaqlar, qocalar və işi ilə əlaqədar pulla daha çox təmasda olanlar- satıcı, kassir, taksi sürücüsü və başqa peşə sahibləri məruz qalırlar.

Əlləri gecə yatmazdan əvvəl, səhər yuxudan oyananda, qida qəbulundan əvvəl və hər dəfə çirklənəndə mütləq yumaq lazımdır. Əksər hallarda əllər yalnız yeməkdən əvvəl yuyulur, təhlükəli mikrob və bakteriyaları məhv etmək üçün əlləri mütəmadi olaraq yumaq lazımdır. Yaxşı olar ki, yuyulma zamanı ılıq sudan istifadə edilsin, çünki soyuq sudan mütəmadi istifadə əllərin dərisini cadarlaşdırır və kobud edir.

Araşdırmalar onu da göstərir ki, antimikrob tərkibi olmayan sabunla əl yumaq nəinki mikrobların yayılma imkanını azaldır, hətta əksinə, onların artımını 17 dəfə çoxaldır. Bir neçə gün ərzində dəyişdirilməyən ümumi dəsmal da virus daşıyıcısına çevrilə bilər. Əllər yaxşı yuyulmayanda kranı bağlayarkən, dəsmalla silərkən, qapı dəstəyindən tutarkən asanlıqla müxtəlif növlü mikrobları daşımaq mümkündür. Ona görə də məsələ yalnız əllərin yuyulmasında deyil, onun yuyulması zamanı hansı vasitələrdən istifadə edilməsindən də asılıdır.

## Çiçəklərdən hazırlanan çələnglər



Çiçək, yarpaq, budaq, meyvə və digər dekorativ materiallardan parçaları, bayram keçirilən yerləri və interyeri bəzəmək adəti çoxəsrlik ənənəyə malikdir.

AZƏRTAC xəbər verir ki, tunc dövrünə aid arxeoloji qazıntılar daha qədim dövrlərdən çiçəklərdən bəzək kimi istifadə edildiyini göstərir. Qədim Misirdə məbəd və sarayları güllərlə bəzəyirdilər. Yunanlar və romalılar çələngi çox sevirdilər. Qədim şəhərlərdə tapılan freskalarda yunan allahları və ilahələrinin başında dəfnə və qızılgül çələngi təsvir edilib. Slavyan xalqları gül çələngindən həm də fala baxmaq üçün istifadə edirdilər. Hindistan, İndoneziya və Birma kimi ölkələrdə evə gələn hörmətli qonaqların boynuna gül çələngi salınması ənənəsi indiyə qədər yaşayır. Həmin ölkələrdə hər hansı məclisi gül-çiçəksiz təsəvvür etmək çətindir.

Avropada buketlər XIV-XV əsrlərdə meydana çıxmağa başlayıb. "Buket" fransız sözü olub tərcüməsi gözəl tərtib edilən güllər qrupu deməkdir. Zaman keçdikcə sadə tərtib edilən gül çələngləri daha da təkmilləşib. Viktoriya, pompadur, bidermeyer, makart, plata və digər üslubda olan gül buketləri dəbə düşməyə başlayıb. Güllər həmişə insanları müşayiət edib və onun vasitəsilə öz hisslərini büruzə veriblər.

Qızılgül - ən incə hisslər, qərənfil - ilk məhəbbət, süsən - təmizlik, səhləb - ailə xoşbəxtliyi, astra - bağışlanma istəyi, xrizantema - dostluq, zanbaq -məhəbbəti büruzə vermək, yasəmən - ilk məhəbbət rəmzi hesab olunur.

## Elan

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təlim və tərbiyə ixtisası üzrə II kurs tələbəsi Aydın Gülderenin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# Bu gün Bakıda Formula 1 Azərbaycan Qran-Prisi başlayır



***Bakı üçüncü dəfə Formula 1 yarışlarına ev sahibliyi edir. Aprelin 27-29-da ölkəmizdə Formula 1 dünya çempionatının dördüncü mərhələsi - Azərbaycan Qran-Prisi keçiriləcək. Aprelin 27-də sərbəst yürüşlər, ertəsi gün sıralanma turu, aprelin 29-da isə Azərbaycan Qran-Prisi təşkil olunacaq.***

AZƏRTAC xəbər verir ki, Dənizkənarı Milli Park boyunca uzanan F1 azarkeşlərinin əyləncə zonasında aprelin 29-dək yarışı izləməyə gedəcək avtoidman həvəskarlarına bir-birindən maraqlı yeni əyləncələr təqdim olunacaq.

Dənizkənarı Bulvarda yarış çərçivəsində baş tutacaq əyləncə tədbirləri aprelin 26-da başlayıb. Əyləncə tədbirləri aprelin 27-də və 28-də saat 10:00-dan 19:00-dək və aprelin 29-da saat 10:00-dan 14:00-dək keçiriləcək. Həmçinin musiqili əyləncə proqramı aprelin 27-29-da axşam saatlarından başlayaraq "Baku Crystal Hall"da bir-birinin ardınca səhnəyə çıxacaq dünya ulduzları və məşhur DJ-lərin möhtəşəm performansları ilə gec saatlaradək davam edəcək.

### Formula 1 ilə yaxından tanışlıq

Formula 1 azarkeş zonasında builki Azərbaycan Qran-Prisində mübarizə aparan bütün pilotların iştirakı ilə aprelin 27-29-da saat 11:00-dan etibarən günün müxtəlif saatlarında avtoqraf sessiyaları keçiriləcək. Sessiyalar zamanı azarkeşlər sevdiyi pilotlarla görüşərək şəkil çəkdirə və avtoqraf ala biləcəklər. Tamaşaçıların sevimli pilotları ilə görüşü üçün məkana erkən gəlmələri tövsiyə olunur.

Bu il tamaşaçılar Formula 1-in yeni pilotları ilə yanaşı, Bakı şəhər halqasını da daha yaxından tanımaq fürsətinə sahib olacaqlar. Belə ki, aprelin 28-də Dənizkənarı Milli Parkda yerləşən F1 azarkeş zonasında saat 15:30-dan 16:00-dək F1-in yeni pilotları ilə sual-cavab sessiyası keçiriləcək.

Həmçinin yarış sessiyaları başa çatdıqdan sonra trek tamaşaçıların gəzintisi üçün açıq olacaq. Həmin müddətdə trek daxilində xüsusi avtobuslar da xidmət göstərəcək. Tamaşaçılar trekin müxtəlif yerlərindəki dayanacaqlarda enərək Bakı Şəhər Halqasının özünəməxsus xüsusiyyətləri ilə ətraflı tanış ola biləcəklər.

### Yeni formatda mərasimlər

Ötən illərdəkindən fərqli olaraq bu il tamaşaçıları salamlama mərasiminin açılışı pilotların paradından əvvəl baş tutacaq. Musiqili tamaşa formasında keçəcək mərasimin açılışından dərhal sonra pilotlar xüsusi nəqliyyat vasitəsilə Bakı Şəhər Halqasında dövrə vuraraq trek ətrafında olan tamaşaçıları salamlayacaqlar. Yarışa start verilməzdən əvvəl himn mərasimi keçiriləcək. Azərbaycan himni səsləndikdən sonra pilotlar qrid düzülüşündə yer alan bolidlərə yaxınlaşaraq yarış üçün son hazırlıqlarını görəcəklər. Yeni qaydaya əsasən, bu il qrid qızları olmayacaq və onların əvəzində pilotları yalnız himn mərasimində 7-10 yaşlardan ibarət uşaqlar müşayiət edəcəklər.

F1 azarkeşləri üçün simulyator yarışları

Tamaşaçılar F1 azarkeş zonasında yerləşən "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinə (BŞH) məxsus simulyatorlarda yarışmaq imkanı əldə edəcəklər. Bu yarışlarda ən sürətli nəticə göstərən tamaşaçıya qiymətli mükafatlar veriləcək. Bununla yanaşı, simulyatorlarla yanaşı, müxtəlif növ əyləncəli oyunlar, o cümlədən pit-stop yarışı da keçiriləcək.

### Konsert proqramları

Bütün bilet sahibləri aprelin 27-29-da axşam saatlarından etibarən keçiriləcək konsert və əyləncə proqramlarında pulsuz iştirak edə biləcəklər. Aprelin 27-də əvvəlcə səhnəyə "Jamiroquai" qrupu çıxacaq və sonra onun ardınca gecə saatlarında DJ Afrojackın iştirakı ilə əyləncə proqramı baş tutacaq. Aprelin 28-də bir-birinin ardınca səhnədə Kristina Aqilera ilə "Axwell ? Ingrosso", aprelin 29-da isə Dua Lipa ilə Martin Solveig yer alacaqlar. Həmçinin proqram aralarında verilən fasilələrdə yerli DJ-lər də səhnəyə çıxaraq tamaşaçılara əyləncə ilə dolu gecə təqdim edəcəklər. Əvvəlki illərdəkindən fərqli olaraq, bu il dünya ulduzlarının konsert proqramları "Baku Crystal Hall"da keçiriləcək. Tamaşaçıların konsert zonasına rahat gediş-gəlişini təmin etmək üçün Azneft dairəsi ilə "Baku Crystal Hall" arasında xüsusi avtobuslar fəaliyyət göstərəcək.

### Bir-birindən zövqlü səyyar şoular

Əyləncə zonaları boyunca səyyar məzhəkəçi-aktyorların tamaşaları yarışı izləməyə gələnlərin əhval-ruhiyyəsini yüksəldərək yarış həyəcanına əyləncə coşqusu qatacaq. Burada keçiriləcək səyyar tamaşalara sirk və balans şouları, pantomima aktyorları və ağacayaqların orijinal hərəkətləri, müxtəlif yerli DJ-lərin və müğənnilərin musiqili əyləncə proqramları, küçə rəqsləri, eləcə də digər maraqlı nömrələr daxildir.

### Azyaşlılar üçün maraqlı əyləncələr

Yarış həftəsonunun ən balaca qonaqları üçün xüsusi sürücülük məktəbi təşkil olunacaq. Burada uşaqlar yol hərəkəti qaydalarını əyləncəli və sərbəst mühitdə öyrənə biləcəklər. Bundan başqa, azyaşlı tamaşaçılar üçün dəbilqə formasında əyləncə mərkəzi fəaliyyət göstərəcək. Həmçinin uşaqlar müxtəlif interaktiv və maarifləndirici oyunlarda da iştirak edərək hərtərəfli şəkildə əylənə biləcəklər.

### Xatirə şəkli üçün fərqli mənzərələr

Dənizkənarı Bulvar boyunca uzanan F1 azarkeş zonasının müxtəlif yerlərində tamaşaçılara şəkil və selfi çəkdirmək üçün fərqli arxafonlar, o cümlədən Azərbaycan Qran-Prisinə aid podium və həştəqlər, F1 pilotlarının heykəlləri və onları təsvir edən maskotlar, divar və yerüstü rəsmlər, F1 yarışlarının keçirildiyi treklərin sxemləri, milli ornamentli F1 bolidləri və retro avtomobillər təqdim olunacaq.

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**